13 aprel 2022 №28 (1901)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# TÜRKSOY-da təhvil-təslim mərasimi

## Sultan Raev baş katib vəzifəsinin icrasına başladı

Xəbər verildiyi kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un rəhbərliyində dəyişiklik baş verib. TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının martın 31-də Bursada keçirilmiş iclasında Qırğız Respublikasının namizədi Sultan Raev qurumun yeni baş katibi seçilib.

Aprelin 12-də Ankarada, TÜRKSOY-un qərargahında keçirilən mərasimdə Sultan Rayev baş katib vəzifəsi missiyasını Düsen Kaseinovdan təhvil alıb.

Tədbirdə Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy, xarici işlər naziri Mövlud Çavuşoğlu, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Bağdad Amreyev, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, eləcə də digər türkdilli ölkələrin Ankarada fəaliyyət göstərən səfirləri, digər dəvətlilər, üzv ölkələrin TÜRKSOY-dakı təmsilçiləri iştirak ediblər.



Düsen Kaseinov çıxış edərək bildirib ki, TÜRKSOY-da çalışdığı zaman özünü doğma mühitdə hiss edib. Türk xalqlarının ortaq mənəvi dəyərlərini dünyanın dörd bir tərəfinə yaymaqda TÜRKSOY-un önəmli xidmətlərinin olduğunu bildirən D.Kaseinov bu təşkilatda xidmət etməkdən qürur duyduğunu bildirib və TÜRKSOY-un gələcək fəaliyyətlərinə uğurlar arzulayıb.

D.Kaseinov çıxışında 1993-cü ildən fəaliyyət göstərən bu qurumun ilk rəhbəri olmuş və hazırda Azərbaycanın Rusiyada səfiri olaraq çalışan Polad Bülbüloğlunun xidmətlərini də qeyd edib.

davamı səh. 2-də

# Qarabağı da, Zəngəzuru da nümunəvi bölgə kimi quracağıq



Biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar, heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri aprelin 12-də ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı deyib.

Dövlət başçısı vurğulayıb ki, İkinci Qarabağ müharibəsindəki Qələbəmiz nəticəsində Azərbaycana çox böyük maraq var. İş görmək, biznes əlaqələri qurmaq müraciətləri kifayət qədər çoxdur. Bu gün dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, bu qədər marağı özünə cəlb edə bilib.

Prezident diqqətə çatdırıb ki, ötən müddətdə xarici ticarət dövriyyəsi artıb, xarici dövlət borcu isə azalıb: "Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir. Yəni, biz bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox bir səviyyədə aşağı sala bilmişik".

Qeyd olunub ki, xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo – cəmi üç ayda 5 milyard dollardan çoxdur: "Yəni, bu, çox böyük rəqəmdir. Mütəxəssislər onu da bilirlər ki, dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkələr daha çox idxal edir, nəinki ixrac edir. Azərbaycanda isə təkcə üç ayda 5,1 milyard dollar gəlir – bizim ixracımız idxalı üstələyir...".

Prezidentin sədrliyi ilə keçirilən müşavirə haqqında daha ətraflı növbəti sayımızda.

# "Ağ kölgə"də görünən azad rənglər

Müasir İncəsənət Muzeyində aprelin 8-də Xalq rəssamı Cəlil Hüseynovun 65 illiyinə həsr olunmuş "Ağ kölgə" adlı sərginin açılış mərasimi keçirildi.

Rəsmilər, tanınmış sənət adamları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi sərgi Mədəniyyət Nazirliyi və Müasir İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə gerçəkləşirdi.

Müasir İncəsənət Muzeyinə qonaqlardan tez gəlmişik. Sərgi gözəl hazırlanıb. Xalq rəssamı, professor Cəlil Hüseynov da qonaqlarını qarşılamaq üçün hazırdır. Yubiley yaşı və ilk fərdi sərginin həyəcanı hiss olunur. Vaxtın tamamına az qalmış rəssamın sənət dostlarının axını başlayır.



Səmimiyyətlə qonaqları qarşılayan yubilyar təvazökarlıq edib müsahibə verməkdən imtina etmək istəməsə də, qısa fikrini ala bilirik. Fırça ustası deyir: "Sərgidə 1970-ci illərin sonlarından başlayaraq müxtəlif dövrlərdə işlədiyim 60-dək əsər nümayiş olunur. Söhbət qadın obrazlarına gəlincə isə demək istərdim ki, qadın obrazları hər zaman rəssamların əsas mövzularından biri olub. Ancaq çəkdiyim rəsmlər təkcə bununla bitmir. Mənim işlərim arasında natürmortlar, Abşeron mənzərələrini də görmək olar. Bu mənim ilk fərdi sərgimdir".

davamı səh. 3-də

# Tammetrajlı bədii film layihələrinə dəstək müsabiqəsinə yekun vurulub

2021-ci ilin dekabr ayında Mədəniyyət Nazirliyi tərəfindən "Tammetrajlı bədii film layihələrinə dəstək – 2022" müsabiqəsi elan olunmuşdu.

Milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan müstəqil prodüser mərkəzlərinin və istehsal şirkətlərinin fəaliyyətini stimullaşdırmaq, milli-mənəvi və ümumbəşəri dəyərləri filmlərlə təbliğ etmək, kino peşəkarlarının təcrübələrini daha da artırmaq məqsədilə keçirilən müsabiqəyə yekun vurulub.

səh. 5

# Məşhur səyyah yenə Bakıya gəlir

## Heydər Əliyev Mərkəzində mühazirə deyəcək

"Torpağı qoruyaq" ("Save Soil") missiyası ilə motosikletlə 100 günlük səyahətə çıxan məşhur yoqin Sadhquru (Caqqi Vasudev) aprelin 29-da Azərbaycanda olacaq və həmin gün Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edəcək.

Bu, Sadhqurunun Heydər Əliyev Mərkəzində ikinci çıxışıdır. İlk dəfə o, Azərbaycanda 2018-ci ilin noyabrında olub.

Torpağın qorunması hazırda dünyanın gündəmində olan mövzudur. Bu sahədə qlobal səylər sadə vətəndaşdan siyasətçilərə, işgüzar dairələrədək hamının dəstəyini alıb. Sadhquru da planeti yox olmaq təhlükəsindən xilas etmək naminə ötən ay torpağın qorunması uğrunda qlobal kampaniyaya start verib. Bu məqsədlə başlayan 100 günlük səyahətində motosikletlə Avropa, Mərkəzi Asiya və Yaxın Şərqin 26 ölkəsini – ümumilikdə 30 min kilometr məsafəni qət edəcək, yolboyu ətraf mühit müdafiəçiləri ilə görüşəcək.

Yoqin artıq Birmingem, London, Amsterdam, Berlin, Praqa, Vyana, Lyublyana, Roma, Cenevrə, Paris və Brüsseldə olub.




Sadhquru may ayında BMT-nin səhralaşma ilə mübarizə konvensiyasına (UNCCD COP15) üzv ölkələrin konfransının 15-ci sessiyasında çıxış da edəcək. Həmin ay Davosda Dünya İqtisadi Forumunda dünya liderlərini öz ölkələrində torpağı məhv olmaqdan xilas etmək üçün fəal hərəkətə keçməyə çağıracaq.

Sadhquru Heydər Əliyev Mərkəzində ingilis dilində çıxış edəcək və mühazirəsi sinxron tərcümə olunacaq.



# Özbəkistanda Azərbaycan mədəniyyəti günləri keçirilib

Mədəniyyət günləri Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı, iki ölkənin Mədəniyyət nazirlikləri və Azərbaycanın Özbəkistandakı Səfirliyinin dəstəyi ilə reallaşıb.

səh. 8

# Qahirədə "İslam Mədəniyyətinin Paytaxtı – 2022" tədbirlərinə start verilib

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO) Qahirədə "İslam Mədəniyyətinin Paytaxtı – 2022" tədbirlərinə start verib.

Bu münasibətlə Misir paytaxtında keçirilən mərasimdə İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik və Misirin mədəniyyət naziri İnes Abdel-Dayim çıxış ediblər. Çıxışlarda Qahirənin ən qədim və tarixi abidələri ilə zəngin şəhərlərindən olan Qahirədə il ərzində təşkil olunacaq tədbirlərdən söz açılıb.

İCESCO-nun Baş direktoru "İslam Mədəniyyətinin Paytaxtı" bayrağını Misirin mədəniyyət nazirinə təqdim edib.



Sonra mərasim iştirakçıları Qahirənin qədim abidələrini əks etdirən foto və əl işləri sərgiləri ilə tanış olub, sənədli filmə və incəsənət ustalarının konsertinə tamaşa ediblər.

# Pandemiyanın bitməsindən danışmaq hələ tezdir

Bir sıra ölkələrdə koronavirusla bağlı məhdudiyyətlərin aradan qaldırıldığı və 2020-ci ildən əvvəlki həyatın bərpasına hazırlıq görüldüyü bir vaxtda Dünya Səhiyyə Təşkilatının rəhbəri Tedros Adhanom Qebreyesus bildirib ki, pandemiyanın bitməsindən danışmaq hələ tezdir.

Təşkilat rəhbəri diqqətə çatdırıb ki, dünya üzrə yoluxma sayı yüksək olaraq qalır, bir çox ölkələrdə peyvəndlənmə göstəricisi çox aşağıdır.

"Dünyada ölüm hallarının azalması tendensiyası müşahidə olunsa da, pandemiya hələ də davam edir. Xəstəliyin yoluxuculuq riski hələ yüksək olaraq qalır. Pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması infeksiyaların yayılmasına rəvac verir", – deyə o bildirib.

## Tuğ kənd Uşaq musiqi məktəbinin "Şuşa İli"nə töhfəsi



səh. 4

## Tanınmış fransalı bloger "Netflix" platformasında mədəniyyətimizi təbliğ edəcək

səh. 3

## Tələbələrin "Məhv olmuş gündəliklər"i



səh. 5

№28 (1901)
13 aprel 2022
www.medeniyyet.az



# Azərbaycanın tolerantlıq modelinin tədrisinə diqqət artırılacaq

## Prezident İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib

Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu din-dövlət münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib.

Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısına məlumat verib ki, institutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Bakalavriat səviyyəsi üzrə "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları, magistratura səviyyəsi üzrə (dinşünaslıq ixtisası üzrə) "Dinin sosiologiyası", "Dinin psixologiyası", "Dinlərin tarixi" və "İslamşünaslıq" ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) "Dinşünaslıq", "Dinin tarixi və fəlsəfəsi" ixtisasları tədris olunur.

Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Qeyd edək ki, Bakının Yasamal rayonunda inşa olunan beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün namaz otaqları, mətbəə otaqları yaradılıb.

Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.

# Əhalinin kütləvi toplaşdığı məkanlarda təhlükəsizlik qaydalarına necə əməl olunur?

## Aidiyyəti yerlərdə yoxlamalar aparılacaq

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 11-də "Əhalinin kütləvi toplaşdığı bütün növ xidmət və ticarət obyektlərində baş verə biləcək fövqəladə hal, qəza risklərinin müəyyən edilməsi və çatışmazlıqların aradan qaldırılması işinin təşkili ilə bağlı tədbirlər barədə" sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 6 ay müddətində Energetika Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin (respublikanın şəhər və rayon mərkəzlərinə münasibətdə rayon (şəhər) icra hakimiyyəti orqanlarının nümayəndələri), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin və "Azərişıq" ASC-nin nümayəndələri ilə birlikdə ölkə üzrə insanların kütləvi toplaşdığı obyektlərdə yanğın, radiasiya və texniki təhlükəsizlik qaydalarına düzgün riayət edilməsi ilə bağlı yoxlamalar aparılmasını təşkil etməlidir.

Yoxlamalar insanların müvəqqəti yaşayışı üçün nəzərdə tutulmuş binalarda, o cümlədən yataqxanalarda, mehmanxanalarda, sanatoriyalarda, istirahət evlərində, kempinqlərdə, motellərdə və s; mülkiyyət formasından asılı olmayaraq, bütün sosial təyinatlı obyektlərdə, xəstəxanalarda, təhsil müəssisələrində və s; tamaşa və mədəni-maarif təşkilatlarının binalarında (teatrlar, kinoteatrlar, konsert zalları, muzeylər və s.); əhaliyə xidmət göstərən bütün ictimai obyektlərdə (ticarət mərkəzləri, kafelər, restoranlar və s.) aparılacaq.

Fövqəladə Hallar Nazirliyinə aparılan yoxlamaların gedişatı barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə mütəmadi olaraq məlumat vermək tapşırılıb.

# Filarmoniyada Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert

Aprelin 15-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunacaq.

Gecədə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Əməkdar artist Fuad İbrahimov) və solist, Xalq artisti Yeganə Axundova (fortepiano) çıxış edəcək.

Konsertdə Fikrət Əmirovun əsərləri səslənəcək, həmçinin Yeganə Axundovanın ifasında tərtib olunmuş audiodiskin təqdimatı olacaq. Eyni zamanda Azərbaycan Dövlət Film Fondunun təşkilatçılığı ilə Fikrət Əmirova həsr olunmuş fotosərgi nümayiş etdiriləcək.

# Türkiyəli məktəblilər ölkəmizdə səfərdədir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin dəvəti ilə Türkiyənin Kastamonu vilayətinin Kuzeykənd ibtidai məktəbinin 4 A sinfinin şagirdləri və müəllim heyəti ölkəmizə gəliblər.




Nümayəndə heyəti aprelin 12-də Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsi anılıb, məzarları üzərinə qərənfillər düzülüb. Həmçinin Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib.

Sonra qonaqlar Heydər Əliyev adına Müasir Təhsil Kompleksi və 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi ilə tanış olublar.

Türkiyəli şagirdlərlə görüşən təhsil naziri Emin Əmrullayev ortaq dəyərlərə sahib iki ölkə şagirdləri arasında ünsiyyətin önəmini qeyd edib. Nazir martın 15-22-də Çanaqqala zəfərinin ildönümü ilə əlaqədar Türkiyədə təşkil olunan tədbirlərdə azərbaycanlı şagirdlərin iştirakını diqqətə çatdırıb.

Qonaqlara 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqının göstərdiyi əzm, iradə və birlik haqqında təqdimat nümayiş etdirilib.

Səfər çərçivəsində Heydər Əliyev Mərkəzinin ziyarət edilməsi, habelə Hərbi Qənimətlər Parkı ilə tanışlıq nəzərdə tutulur. Nümayəndə heyətinin aprelin 14-15-də işğaldan azad olunmuş Füzuli və Şuşa şəhərlərinə səfərləri planlaşdırılır.

# TÜRKSOY-da təhvil-təslim mərasimi

## Sultan Raev baş katib vəzifəsinin icrasına başladı

əvvəli səh. 1-də

Sonra çıxış edən Sultan Raev bildirib ki, TÜRKSOY-un Türk dünyasının gücləndirilməsində önəmli xidmətləri olub: "Haqqımda söylədiyi xoş sözlərə və diləklərinə görə böyük qardaşımız Düsen Kaseinova təşəkkür edirəm. Bu gün TÜRKSOY tarixində mühüm bir gündür. Bir ənənəni layiqincə yerinə yetirərək Türk dünyasının mədəni əməkdaşlığı üçün yeni səhifə açırıq. Belə bir mənalı gündə əcdadlarımızdan bizə miras qalan türk mədəniyyətini, mənəvi dəyərlərimizi qoruyub zənginləşdirməyi özlərinin başlıca vəzifəsi hesab edən sizlərlə bir yerdə olmaqdan çox xoşbəxtəm. Bu günə gəldiyimiz məqamda şanlı tariximiz, zəngin mədəniyyətimiz bizi ayrılmaz bir bütöv edib. Əməkdaşlığımız dünya sivilizasiyasının inkişafına da mühüm töhfələr verib. Ötən dövrdə TÜRKSOY bütün dünyada nüfuz qazanaraq mədəniyyət sahəsində əməkdaşlığımızın əsas markasına çevrilib".






Təşkilatın gələn il 30 illik yubileyini qeyd edəcəyini vurğulayan baş katib deyib ki, ötən müddətdə türkdilli xalqlar arasında unikal mədəni körpülər qurulub: "Bu körpülərin memarlarından olan, TÜRKSOY-a uzun illər rəhbərlik edən və böyük töhfələr verən hörmətli ağsaqqallarımız Polad Bülbüloğluna və Düsen Kaseinova minnətdarlığımı bildirirəm. Təşkilatımıza son 14 ildə rəhbərlik edən Düsen Kaseinovun adı ilə TÜRKSOY-un inkişaf dövrü dərindən bağlıdır və o, ümumtürk mədəniyyətinə böyük töhfələr verib. Düsen bəyin adı TÜRKSOY tarixinə qızıl hərflərlə yazılıb və inanıram ki, o, bundan sonra da Türk dünyasına xidmət etməyə davam edəcək".

Sultan Raev çıxışının sonunda mərasim iştirakçılarına xitabən deyib: "Hörmətli iştirakçılar, bu çətin işdə dəstəyiniz mənim ən böyük köməyim olacaq. Birliyimizdə, ortaq mədəniyyətimizdə daha güclü Türk dünyası yaradacağıq. Biz hər zaman keçmişimizlə fəxr etmişik və fəxr edə biləcəyimiz gələcəyi əl-ələ verib birlikdə quracağıq...".

TDT-nin Baş katibi Bağdad Amreyev çıxışında deyib ki, Türk dünyasında əməkdaşlığın əsas qayəsi mədəniyyət istiqamətindəki xidmətlərdir: "Türk birliyimizin xidmətində ilk mədəni əlaqələr TÜRKSOY vasitəsilə icra olunub". B.Amrayev yeni baş katibə uğurlar diləyib və Türk Dövlətləri Təşkilatı olaraq bu quruma hər cür dəstəyi verməyə hazır olduğunu bildirib.

Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu Türk dünyasının böyük ziyalısı İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik" kəlamını xatırladaraq bildirib ki, TÜRKSOY da bu prinsiplərə uyğun fəaliyyət göstərir.

Nazir Mehmet Nuri Ersoy çıxışında Düsen Kaseinovun 2008-ci ildən TÜRKSOY-a rəhbərlik etdiyini xatırladaraq onun bu illər ərzində olduqca önəmli işlərə imza atdığını xüsusi qeyd edib: "Bu xidmətlərə görə Düsen Kaseinova borcluyuq. Ümid edirik ki, yeni rəhbərlik həmrəyliyimizi və birliyimiz daha da gücləndirəcək...".

Çıxışlardan sonra Düsen Kaseinov TÜRKSOY Baş Katibliyinin təhvil-təslim simvolunu Sultan Raevə təqdim edib. Yeni və sabiq baş katiblər bir-birilərinə milli geyimlərini hədiyyə ediblər.

Beləliklə, Sultan Raev TÜRKSOY-un Baş katib vəzifəsinin icrasına rəsmən başlayıb.

Xatırladaq ki, Qırğızıstanın Xalq yazıçısı, tanınmış publisist Sultan Raev 2013-2014-cü illərdə ölkəsinin mədəniyyət, informasiya və turizm naziri olub, 2020-ci ildən Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini vəzifəsində çalışıb.

**Mehparə Sultanova**
**Ankara**

# "Dəyirmi masa" layihəsində Seyid Şuşinski xatırlandı

Beynəlxalq Muğam Mərkəzinin "Dəyirmi masa" layihəsinin növbəti tədbiri görkəmli xanəndə, Xalq artisti Seyid Şuşinskiyə (1889-1965) həsr olundu. "Seyid Şuşinski – ustad-xanəndə, böyük müəllim" adlı tədbir xanəndənin doğulduğu tarixdə – aprelin 12-də reallaşdı.



Tədbirdə Seyid Şuşinskinin tələbəsi Nəriman Əliyevin konsertmeysteri kimi çalışmış Xalq artisti, professor Möhlət Müslümov, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Arif Əsədullayev, "Seyid Şuşinski" sənədli filmində xanəndənin gənclik obrazını yaratmış Əməkdar müəllim Qəzənfər Abbasov, Əməkdar artist, tarzən Valeh Rəhimov və digər sənət adamları iştirak edirdilər.

Çıxışlarda vurğulandı ki, zəngin yaradıcılıq yolu keçmiş, Qarabağ xanəndəlik məktəbinin ən tanınmış simalarından olan Seyid Şuşinski musiqi xadimi, pedaqoq kimi Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış sənətkardır.

Xalq artisti Möhlət Müslümov Nəriman Əliyevlə birgə çalışdığı dövrdə xanəndənin öz ustadı Seyid Şuşinskidən öyrəndiklərini dəqiqliklə tələbələrinə çatdırdığını dedi. Bildirdi ki, bu gün də muğam dərsləri əsasən həmin dövrdə Seyid Şuşinski tərəfindən tərtib edilən tədris proqramına uyğun şəkildə həyata keçirilir.

Professor Arif Əsədullayev çıxışında dedi: "Ağa" deyərək müraciət etdiyimiz Seyid Şuşinski uzun illər dayım Nəriman Əliyevin evində yaşayıb. Mən 14 yaşımdan ustad xanəndəni tanımışam".

Əməkdar artist Valeh Rəhimov Seyid Şuşinski ilə ilk dəfə tanışlığından danışaraq həmin gün eşitdiyi ifa ilə bağlı fikirlərini bölüşdü.

Xanəndə haqqında sənədli filmin rejissoru Kəmalə Musazadə ekran işinin çəkilişləri və filmdə xanəndənin gənclik obrazını yaradan Əməkdar müəllim Qəzənfər Abbasov rolun məsuliyyəti ilə bağlı təəssüratlarını dilə gətirdilər.

Layihənin konsert hissəsində Xalq artisti Aygün Bayramova, BMM-in solistləri Əməkdar artist İlkin Əhmədov və xanəndə Məmməd Nəcəfovun ifaları təqdim olundu. Xanəndələri Xalq artistləri Möhlət Müslümov (tar) və Fəxrəddin Dadaşov (kamança) müşayiət edirdi.

Qeyd edək ki, "Dəyirmi masa" layihəsinin ideya müəllifi BMM-in direktoru, Xalq artisti Murad Hüseynov, koordinatoru isə filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlıdır.

**L.Azəri**

# Məhəbbətdən yaranan misralar

## Musiqili-ədəbi gecə keçirilib



Aprelin 11-də Beynəlxalq Muğam Mərkəzində "Məhəbbət haqqında" adlı musiqili-ədəbi gecə keçirildi.

Layihənin rəhbəri, "Colibri Arts" şirkətinin direktoru Ülviyyə Axundova bildirdi ki, incəsənət və mədəniyyət insanları bir araya gətirmək üçün gözəl vasitədir: "Biz bu layihə ilə göstərmək istədik ki, insanlar təcrübələrdə, hisslərdə, duyğularda birləşir. Pandemiyadan sonra insanların sevgiyə və həyata uyğunlaşmağa ehtiyacı var. Bu ehtiyacın da əvvəlində musiqi və poeziya dayanır".

Rusiyanın Azərbaycandakı Səfirliyinin nümayəndələri tədbirin təşkilinə görə minnətdarlıqlarını ifadə etdilər.

Gecədə tanınmış rus şairləri Boris Pasternak, Anna Axmatova, Bella Axmadulina, Robert Rojdestvenskinin poetik nümunələri səsləndirildi. Səmimi sevgidən yoğurulan misralar S.Raxmaninov, A.Piazolla, L.Eynaudi və digər bəstəkarların musiqiləri ilə müşayiət olunurdu. Sözlə melodiyanın harmoniyası qonaqlarda xoş təəssürat yaratdı.

**Lalə**

# “Ağ kölgə”də görünən azad rənglər

## Xalq rəssamı Cəlil Hüseynovun yubiley sərgisi





əvvəli səh. 1-də

Sərginin açılışında çıxış edən mədəniyyət naziri Anar Kərimov rəssamı 65 illik yubileyi və sərgi münasibətilə təbrik etdi. Diqqətə çatdırdı ki, Cəlil Hüseynov müasir Azərbaycan incəsənətinin inkişafı və zənginləşməsində xüsusi xidmətləri olan rəssamlardandır. Onun yaradıcılığı həm ölkəmizdə, həm də xaricdə tanınır və sevilir. Rəssamın əsərləri respublikamızda fəaliyyət göstərən bir çox muzeylərdə və şəxsi kolleksiyalarda qorunub saxlanılır. Cəlil Hüseynovun əsərləri ABŞ, Fransa, Almaniya, Rusiya, Türkiyə, İran, Gürcüstan, BƏƏ, Ukrayna və s. ölkələrdə təşkil edilmiş sərgilərdə nümayiş etdirilib. Rəssam həm də istedadlı pedaqoq kimi təsviri sənətimizin inkişafına, gələcək nəsillərə ötürülməsinə yorulmadan xidmət edir. Cəlil Hüseynovun yaradıcılığında peyzaj janrında rəsm əsərləri, həmçinin qadın mövzusu üstünlük təşkil edir. Bu gün sərgidə nümayiş olunan əsərlər bunun bariz nümunəsidir.

Çıxışının sonunda nazir bir daha yubilyar rəssama təbriklərini çatdırdı, Mədəniyyət Nazirliyinin fəxri fərmanını təqdim etdi.

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov dedi ki, sərgini izləyərkən istedadlı, geniş dünyagörüşünə malik bir rəssam görürük: “Onun özünəməxsus, gözəl işləri var, əsərləri böyük istəkdən yaranıb. Bu əsərlərə baxanda Cəlil Hüseynovun dəst-xəttini aydın görmək olur. Müəllim zirvəyə qalxa bilirsə, bunu tələbəsinə də arzulayır. O, pedaqoq kimi də bacarıqlı bir insandır”.

Xalq rəssamı Fuad Salayev incə, çox gözəl hisslər bəxş edən sərgi münasibətilə yubilyarı təbrik etdi. O, yüksək professionallıqla işlənən etüdlər, natürmort və digər janrlı əsərləri rəssamın xarakterinin göstəricisi kimi səciyyələndirdi.

Yubilyar rəssam qonaqlara və sərginin təşkilatçılarına dərin təşəkkürünü bildirdi.

### Xəyalpərəst və meditativ tablolar əhatəsində

Cəlil Hüseynov bəlkə də sərgini təsadüfən “Ağ kölgə” adlandırmayıb. Ağ kölgə paklıq, günahsızlıq rəmzi sayılır. Deyirlər ki, insan uşaq olanda kölgəsi ağ olur, böyüdükcə kölgəsinin rəngi dəyişir, tündləşir. Rəssam da bu rənglər dünyasında “Ağ kölgə”nin yaddaşını tamaşaçılara ötürür. O, mücərrəd fəlsəfi mövzularla assosiasiya oluna biləcək hər şeyi əsərlərindən çıxararaq diqqəti koloristik məsələlərə yönəldir. Tabloların hər birində rəssamın bədii mesajını oxumaq olur. Əsərlərinin mürəkkəb, nəzəri cəlb etməyən və çoxsaylı çalarlarla zəngin olan koloristik qamması diqqətəlayiqdir. Onun əsərlərində tutqun rəng palitrası üstünlük təşkil edir. Bu rənglərin düşünülmüş şəkildə yerləşdirilməsi əsərlərə lirik, səmimi xarakter verir. “Mənzərə”, “Abşeron motivləri”, qadın obrazları, natürmortlar bunların hər birində xəyalpərəst və meditativ koloritli həlli görə bilirik. Bu da əsərlərin mövzusundan asılı olmayaraq, sakit, dinc və ürəkaçan atmosfer bəxş edir.

Qeyd edək ki, Xalq rəssamı Cəlil Hüseynov eyni zamanda Azərbaycan, Rusiya, Ukrayna, Türkiyə və Gürcüstanda bir sıra monumental divar rəsmlərinin müəllifidir. Onun əsərləri AMEA, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti və s. binaları bəzəyir. Rəssam 1986-cı ildən memarlıq layihələrinin müəllifi kimi də fəaliyyət göstərir. Bakı Ali Neft Məktəbi, Türkiyənin Qars, İzmir şəhərlərində Heydər Əliyev adına liseylər və bir çox tikililərdə onun yaradıcılıq təxəyyülünün izləri var.

Kitab qrafikası üzrə də tanınan rəssam hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Rəngkarlıq kafedrasının professorudur. O, həmçinin “Akademik rəsm” və “Təsviri sənət və müstəvi” dərsliklərinin müəllifidir.

**Lalə Azəri**

# Məşhur fransalı bloger ölkəmizə səfərə gəlib

Mədəniyyət Nazirliyi və Azərbaycanın Fransadakı Səfirliyinin dəstəyi ilə məşhur fransalı bloqer Patrik Veiseller ölkəmizə səfər edib.




Fransalı bloger sosial media hesablarından, həmçinin “Netflix” platforması üzərindən Azərbaycan mədəniyyətinin təbliğatına yönələn layihəni təqdim edəcək.

Avtomobil turu formatında həyata keçirilən layihə üzrə tanınmış komediya ustası, “Patrick le Chinois” ləqəbi ilə tanınan Patrik Veiseller Azərbaycanın tarixi, milli mədəni irsi, tolerant və multikultural mühiti barədə verilişlər hazırlamaq məqsədilə Mədəniyyət Nazirliyinin əməkdaşlarından ibarət qrupla Naftalan, Göygöl, Şəki və digər bölgələrə səfər edib, həmçinin Bakı ilə yaxından tanış olub.

Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən yüksək səviyyədə qarşılanan qonağa şəhər barədə ətraflı məlumat verilib və burada çəkilişlərin aparılmasına şərait yaradılıb.

Bloger Azərbaycanın bölgələri ilə bərabər paytaxt Bakı və şəhərin memarlığı, mədəni mühiti ilə bağlı da reportajlar təqdim edəcək.

# Firəngiz Əlizadənin musiqisi Böyük Britaniyada səslənib

Görkəmli bəstəkar, Xalq artisti, professor Firəngiz Əlizadənin əsərləri Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da geniş tamaşaçı rəğbəti qazanmağa davam edir.



Dünyanın məşhur musiqi salonlarında musiqiləri səslənən Firəngiz Əlizadənin “Nizami fəzası” adlı əsəri bu dəfə tanınmış ukraynalı dirijor Kiril Karabitsinin rəhbərliyi altında Böyük Britaniyanın Bornmut Simfonik Orkestrinin ifasında təqdim olunub.

Aprelin 6-da baş tutan konsert canlı yayımla nümayiş olunub və rəqəmsal biletlər 6 may tarixinədək maraqlananlar üçün əlçatan olacaq.

“Lighthouse Poole” İncəsənət Mərkəzinin press-relizində qeyd edilir ki, Firəngiz Əlizadənin təzadlarla zəngin olan musiqisində zərif şəffaflıq, qabarı çalarlar, təmkinli sadəlik və çoşqun virtuozluq, eləcə də meditasiya və ekstaz hissi həmahəngdir: “Beləliklə, bir tərəfdən, bu musiqi Şərq və Qərb ilə milli ənənələr arasındakı dini və mənəvi toqquşmanı təcəssüm etdirir, digər tərəfdən isə bəstəkar öz şəxsi daxili sarsıntılarını, həyatı boyu yaşadığı gərgin duyğularını öz musiqisində yaşadır...”.

Onu da qeyd edək ki, bu il görkəmli bəstəkarın yubiley ilidir. İl ərzində Firəngiz Əlizadənin əsərlərinin həm ölkəmizdə, həm də xaricdə bir çox tədbirlərdə səslənməsi nəzərdə tutulub.

# Animasiya filmlərimiz Özbəkistanda təqdim olunacaq




Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Azərbaycan animasiyasının 50 illiyi” adlı proqrama daxil edilmiş milli animasiya filmlərimiz ilk dəfə keçirilən Daşkənd Beynəlxalq Animasiya Forumunda (Tashkent İnternational Animation Forum) göstəriləcək.

Özbəkistanın paytaxtında forum aprelin 18-dən 22-dək davam edəcək.

“Azərbaycan animasiyasının 50 illiyi” proqramının kuratoru “Animafilm” Beynəlxalq Animasiya Festivalının direktoru Rəşid Ağamalıyevdir. O, həmçinin foruma beynəlxalq münsiflər heyətinin üzvü kimi dəvət edilib. Bir sıra animasiya filmlərinin müəllifi Elçin Hami Axundov da Daşkənd forumunun qonağı olacaq.

“Azərbaycan animasiyasının 50 illiyi” proqramı bundan əvvəl Polşa, Yunanıstan və Gürcüstanda keçirilən festivallarda təqdim olunub. Proqrama “Cırtdan”, “Tıq-tıq xanım”, “Cırtdan-pəhləvan”, “Anam ağaca çıxıb” və digər filmlər daxildir.

Daşkənd Beynəlxalq Animasiya Forumunda Mərkəzi Asiya ölkələri, İsrail, Azərbaycan, Gürcüstan, Ukrayna və Rusiyanın aparıcı animasiya mütəxəssisləri bir araya gələcəklər.

# Xaricdə təhsil alan skripkaçıların Bakı məktəblərində ustad dərsləri





Prezident təqaüdçüsü və beynəlxalq müsabiqələr laureatları olan istedadlı skripkaçılar – İsveçrədə master-solist pilləsində təhsil alan Cəmilə Qarayusifli və 2019-cu ildə professor İ.Rissinin sinfində doktoranturanı qırmızı diplomla bitirən, Almaniyanın Manhaym Opera Teatrının orkestr artisti Fəridə Rüstəmova bu günlərdə Xalq artisti, professor Zəhra Quliyevanı yubileyi münasibətilə təbrik etmək üçün Bakıya gəliblər.

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən yubiley konsertində çıxış edərək alqışlar qazanan hər iki ifaçı doğma şəhərə gəlmişkən ustad dərsləri də veriblər.

Mədəniyyət Nazirliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə 11-12 aprel tarixlərində Cəmilə Qarayusifli Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, Ş.Ələkbərova adına 20 saylı, Ə.Bədəlbəyli adına 23, T.Quliyev adına 12, S.Rüstəmov adına 13, K.Səfərəliyeva adına 16 nömrəli uşaq musiqi məktəbləri, habelə 33 və 30 nömrəli uşaq musiqi məktəblərinin şagirdlərinə violin ixtisası üzrə ustad dərsləri keçib.

Fəridə Rüstəmovanın 5 və 9 aprel tarixində gerçəkləşən ustad dərslərində isə Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli, M.Maqomayev adına 26, R.Behbudov adına 2, Ə.Bakıxanov adına 6 nömrəli, eləcə də 28 və 37 nömrəli uşaq musiqi məktəbləri, 4 saylı Uşaq incəsənət məktəbinin şagirdləri iştirak ediblər.

Cəmilə Qarayusifli və Fəridə Rüstəmova hər bir iştirakçının çıxışını dinləyərək qeydlər aparıb, onlara öz məsləhətlərini veriblər və ustad dərsinin iştirakçıları ilə violində düzgün ifa etməyin sirlərini bölüşüblər.

# Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondu əməkdaşlıq edəcək

Mədəniyyət Nazirliyi işğaldan azad olunan ərazilərdə bərpaya ehtiyacı olan tarixi-mədəni obyektlərin real vəziyyətinin təhlili, daşınar və ya daşınmaz mədəni irsin bərpası, yenidən qurulması və digər məsələlərdə Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlıq edəcək.



Bu məsələlər aprelin 7-də Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondu arasında imzalanan anlaşma memorandumunda əksini tapıb.

Memorandumu Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov və Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıblar.

Memorandumun məqsədi işğaldan azad olunan ərazilərdə tarix və mədəniyyət abidələrinin bərpası, yenidən qurulması və qorunması, işğaldan azad edilən ərazilərdə dayanıqlı məskunlaşmaya, əlverişli həyat şəraitinin yaradılmasına, inkişafa və bu ərazilərin yüksək rifaha malik regiona çevrilməsinə töhfə verməkdir.

Sənəddə işğaldan azad olunan ərazilərdə mədəniyyət müəssisələrinin tikintisi sahəsində dövlət-özəl tərəfdaşlığı mexanizminin hazırlanması, bu ərazilərdə yaradıcı sənayelərin formalaşması prosesinin təşviqi və dəstəklənməsi kimi məsələlər də əhatə olunub.

Razılaşmada eyni zamanda tarix-memarlıq və arxeoloji abidələr üzrə aparılan təhlil və tədqiqatlar əsasında elmi nəşrlərin, Qarabağ bölgəsinin tarixi, mədəniyyəti, adət-ənənələri və digər dəyərlərinə həsr olunan, o cümlədən Şuşa şəhərinin 2023-cü ildə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” və 2024-cü ildə “İslam Mədəniyyətinin Paytaxtı” elan edilməsi ilə əlaqədar birgə layihələrin həyata keçirilməsi əksini tapıb.

İşğaldan azad edilən ərazilərin bərpası istiqamətində görülən işlərə cəmiyyətin bütün üzvlərinin dəstək göstərməsi, ianələrin cəlb edilməsi Qarabağa vurulan ziyanın həcmi barədə məlumatlandırılmasından birbaşa asılıdır. Bu baxımdan əməkdaşlıq Azərbaycan cəmiyyətinin və diasporun geniş dairələrini bərpa və yenidənqurma işlərinə cəlb etmək, erməni işğalı nəticəsində Qarabağa dəyən zərər haqqında məlumatlandırmaq məqsədilə ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərinin aparılması, ianə mədəniyyətinin təbliği kimi əhəmiyyətli məsələləri də əhatə edəcək.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Qırğızıstan səfiri ilə görüş

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Qırğız Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev ilə görüşüb.

Görüşdə Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qurucu üzv ölkəsi olan Qırğızıstanla əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Fondun prezidenti eyni zamanda Qırğızıstanın nümayəndəsi Sultanbay Raevin TÜRKSOY-un yeni Baş katibi seçilməsi münasibətilə səfiri təbrik edib.



Günay Əfəndiyeva bu günlərdə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” Bursaya səfəri çərçivəsində Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Azamat Jamanqulovla görüşünü xatırladaraq, qırğız xalqının mədəni dəyərlərinin tanıdılması istiqamətində əlaqələrin vacibliyinə toxunub.

Səfir Kayrat Osmonaliyev Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Türk dünyasının tarixinin, zəngin irsinin qorunması, öyrənilməsi, eləcə də türk xalqları arasında birliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən təqdirəlayiq tədbirlərin şahidi olduğunu vurğulayıb.

Fond ilə Qırğızıstan arasında tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq duyduğunu bildirən diplomat Qırğızıstanın böyük şəxsiyyətlərinin yubileylərinin qeyd olunması, Türk dünyasının qədim eposlarının, o cümlədən “Manas” kimi qəhrəmanlıq dastanlarının tədqiqi yönündə birgə aparılacaq işlərin önəmindən söz açıb.

Görüşdə tərəflər arasında 2022-ci il üçün birgə mədəni tədbirlər planı da müzakirə olunub.

# “İtkin düşmüş şəxslər üçün Qlobal Alyans”ın ilk iclası keçirilib

Son beş ildə dünyada itkin düşmüş şəxslərin sayı 75 faiz artaraq 174 mini ötüb. Problemə qlobal səviyyədə diqqəti cəlb etmək və bu sahədə qlobal öhdəliklərin icrasını təşviq etmək üçün “İtkin düşmüş şəxslər üçün Qlobal Alyans” yaradılıb.

Bu barədə Cenevrədə “İtkin düşmüş şəxslər üçün Qlobal Alyans”ın iclasında Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vitse-prezidenti Jil Karbonye məlumat verib.

Tədbirdə ölkəmiz Xarici İşlər Nazirliyi və Cenevrədəki diplomatik nümayəndəliyimiz tərəfindən təmsil edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, aprelin 7-də keçirilən ilk iclasda alyansa indiyədək qoşulmuş 10 dövlətin (Azərbaycan, Argentina, Estoniya, Küveyt, Meksika, Nigeriya, Norveç, Peru, Koreya Respublikası, İsveçrə) nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Azərbaycanda itkin düşmüş şəxslər, onların taleyinin müəyyənləşdirilməsi üçün milli səviyyədə görülən işlər, Başlıbeldə kütləvi şəkildə qətlə yetirilmiş insanların qalıqlarının torpaqlarımızın işğaldan azad edilməsindən sonra identifikasiya edilməsi, Daşaltı, Edilli, Sırxavənd və Fərrux kəndlərində kütləvi məzarlıqların aşkarlanması, Azərbaycanın bu problemə beynəlxalq səviyyədə diqqəti cəlb etmək üçün göstərdiyi səylər və BMT Baş Assambleyası tərəfindən qəbul edilən itkin düşmüş şəxslərlə bağlı qətnamə barədə məlumatlandırılıb. Qlobal Alyansın itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasının vacibliyinə qlobal səviyyədə diqqətin cəlb edilməsi və bu sahədə əməkdaşlığa ciddi töhfə verəcəyinə ümid ifadə olunub.

Qeyd edək ki, “İtkin düşmüş şəxslər üçün Qlobal Alyans” 2021-ci il mayın 11-də BQXK və İsveçrə tərəfinin təşəbbüsü ilə yaradılıb. Azərbaycan bu ilin yanvar ayında BQXK-nin dəvəti ilə bu təşəbbüsə qoşulub.

# “Şuşa mədəniyyətinin inciləri”: musiqi məclisləri

Mədəniyyət Nazirliyinin “Şuşa mədəniyyətinin inciləri” layihəsi müxtəlif bölmələr üzrə təqdimatlarla davam edir. “Şuşa İli” münasibətilə həyata keçirilən layihənin “Azərbaycan musiqisinin məbədi – Şuşa” bölməsinin növbəti təqdimatı mədəniyyət paytaxtımızın musiqi məclislərinə həsr olunub.





Şuşa əzəldən Azərbaycanın musiqi beşiyi, mədəniyyət mərkəzlərindən sayılıb. Hələ XIX əsrin ikinci yarısında Şuşada muğam məclisləri təşkil olunub. Musiqi məclisləri əsl sənətkarlıq məktəbinə çevrilməklə yanaşı, bu sahənin inkişafına öz töhfəsini verib.

Azərbaycan musiqisinin və muğam sənətinin inkişafında yeni-yeni xanəndələr və musiqiçilər nəslinin yetişməsində Şuşanın tanınmış musiqi xadimlərinin yaratdığı məktəblər də mühüm rol oynayıb.

Onlardan biri XIX əsrin məşhur musiqişünası, klassik Şərq musiqisinin mahir bilicisi, şair Xarrat Qulu tərəfindən yaradılıb. Xarrat Qulunun məktəbinə səsi olan gənclər götürülüb, musiqi məclisləri təşkil olunub, Şərq musiqisinin əsasları, muğamlar, Azərbaycan el havalarını düzgün oxumaq qaydaları öyrədilib.

XIX əsrin sonlarında Şuşada fəaliyyət göstərmiş bir başqa musiqi məktəbi isə “Kor Xəlifənin məktəbi” (1883-1893) idi. Bu təhsil ocağı Molla Əli Molla Kəlbəli oğlu (təxəllüsü Kor Xəlifə) tərəfindən açılıb. Bu məktəbdə dini elmlərlə yanaşı, Şərq şairlərinin və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onların ifaçılıq xüsusiyyətləri, musiqi nəzəriyyəsi və praktikası, tar, kamança və digər musiqi alətlərinin ifası tədris olunub. Bir sözlə, “Kor Xəlifənin məktəbi”ndə kamil musiqişünas və ədəbiyyatçılar yetişib. Bu da öz növbəsində klassik musiqinin daha geniş təbliğinə rəvac verib.

Xarrat Qulu dünyasını dəyişəndən (1883) sonra görkəmli musiqişünas alim Mir Möhsün Nəvvab Qarabaği muğam ustadı Hacı Hüsünün yaxından iştirakı ilə Şuşada yeni musiqi məclisi təşkil edib. “Xanəndələr məclisi” də adlanan bu məclis uzun illər həm də musiqi məktəbi rolunu oynayıb. Yaradılmasında əsas məqsəd isə yeni xanəndələr nəsli yetişdirmək, bu sənəti xalq arasında geniş yaymaq və klassik Azərbaycan muğamlarını daha da inkişaf etdirmək olub.

XIX əsrin sonlarında Şuşada “Molla İbrahimin məktəbi” də məşhur olub. Bu musiqi məktəbi daha çox dini xarakter daşıyıb. Yalnız məlahətli, gözəl səsli, poeziyaya xüsusi həvəsli istedadlı gənclərin seçilib götürüldüyü bu təhsil ocağında klassik muğamlardan dərs keçilib, fars, ərəb dilləri öyrədilib. Məktəbdə Qarabağın bir sıra musiqi xadimləri, xanəndələri, eləcə də dahi vokalçı Bülbül, Mehralı oğlu Bahadır və digərləri təhsil alıblar. “Molla İbrahimin məktəbi” təxminən 1920-ci illərədək fəaliyyət göstərib.

# Qaxda xeyriyyə konserti və intellektual yarış

Şəki RMİ Səməd Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzində müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicəsinə kömək məqsədilə “Sabaha bir ümid” adlı xeyriyyə konserti keçirilib.

Konsertdə müğənnilər Vüqar Muradov, Arzu Dunusova və Fərid Kərimovun təqdim etdikləri mahnılar, Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən İsmayıl Dağıstanlı adına Xalq teatrının aktyorları Şəmsəddin Quliyev və İbrahim Paşayevin hazırladıqları yumoristik səhnəciklər tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.



Konsertin sonunda xəstəlikdən əziyyət çəkən uşaqların doğmaları çıxış edərək konsertə görə Şəki RMİ-nin Qax nümayəndəliyinin rəhbərliyinə təşəkkürlərini bildiriblər. Konsertdən əldə olunan vəsait xəstə uşaqlar üçün açılmış bank hesablarına köçürülüb.

***

Qax rayon MKS-nin C.Cabbarlı adına Mərkəzi Kitabxanasında isə “Ən zəngin mütaliəçi kimdir?” adlı intellektual yarış keçirilib.

Tədbiri Qax rayon MKS-nin direktoru Güllü Əhmədova açaraq yeni nəsillərin inkişafında, təlim-tərbiyəsində kitabın, mütaliənin mühüm rol oynadığını bildirib, kitabsevərlərə bilik yarışında uğurlar arzulayıb.

Əməkdar jurnalist Vaqif Musayev, Qax rayon Mədəniyyət Mərkəzinin direktoru Kəmalə Məcidova və MKS-nin direktor müavini Ahidə Əfəndiyeva da uşaq və kitabın gəncələrə faydasından bəhs ediblər.

Yarışda kitabxananın fəal oxucularından təşkil olunmuş “Nur”, “Kitabçı” və “Ziya” komandaları biliklərini sınayıblar. Komandalar “Azərbaycan ədəbiyyatı”, “Dünya ədəbiyyatı” və “Qaxın ziyalıları və görkəmli şəxsiyyətləri” nominasiyaları üzrə sualları cavablandırıblar. “Nur” komandası intellektual yarışın qalibi olub.

# Beşbarmaq dağındakı arxeoloji tədqiqatlar müzakirə olunub

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda “Beşbarmaq” arxeoloji ekspedisiyasının 2021-ci ildə apardığı tədqiqatların yekununa dair tədbir keçirilib.

Tədbirdə məlumat verilib ki, arxeoloji qazıntılarla Beşbarmaq qalasının birinci terrasında qala divarları, 4 qala bürcü və 13 ev, ikinci terrasda isə qala divarı, 1 qala bürcü və 4 evin qalıqları təmizlənib. Əldə edilmiş arxeoloji materiallar əsasən orta əsrlərə aiddir.

Qazıntıların ən mühüm nəticəsi birinci terrasda Erkən Tunc dövrü – Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət qalıqlarının tapılmasıdır. Bu təbəqədə saxsı qab qalıqları, daş əmək alətləri, daş büt aşkar edilib. Bütün bunlar təsdiq edir ki, hələ eramızdan əvvəl III minillikdən Beşbarmaq dağı bölgədə məskunlaşmış əhalinin sitayiş yeri – ibadətgah olub.

İnstitutun baş direktoru, professor Abbas Seyidov çıxışında vurğulayıb ki, Azərbaycanın bir neçə bölgəsində qədim ziyarətgahlardan sonrakı dövrlərdə də inanc yeri kimi istifadə olunması təcrübəsinə rast gəlinir. Abidədə tədqiqatların davam etdirilməsi Azərbaycanın qədim tarixinin bir sıra problemlərinin həllinə yardımçı olacaq.

Tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli çıxış edərək tədqiqatlar haqqında fikirlərini bölüşüb.

Qeyd edək ki, “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu ərazisində arxeoloji tədqiqatlar Dövlət Turizm Agentliyi və Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu arasında imzalanan müqavilə əsasında aparılır. Ekspedisiyaya dosent Səfər Aşurov və elmi işçi Sevinc Hüseynova rəhbərlik edirlər.

**Hazırladı: N.Məmmədli**

# “Vətən mənim hər anım”

## Tuğ kənd Uşaq musiqi məktəbinin “Şuşa İli”nə töhfəsi

Aprelin 8-də Prezident yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Xocavənd rayon Tuğ kənd Uşaq musiqi məktəbinin “Şuşa İli”nə həsr olunmuş “Vətən mənim hər anım” adlı konserti keçirildi.





Konsert proqramı Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ), Xocavənd Rayon İcra Hakimiyyəti və DİA-nın təşkilatçılığı ilə gerçəkləşdi.

Dövlət rəsmiləri, Milli Məclisin deputatları, elm, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi musiqi axşamında ilk olaraq torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov qonaqları salamlayaraq qeyd etdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində tarix yazaraq 30 illik işğala son qoydu, torpaqlarımızı düşməndən azad etdi. Məlum olduğu kimi, dövlət başçısı tərəfindən 2022-ci il ölkəmizdə “Şuşa İli” elan edilib. Bu istiqamətdə silsilə tədbirlər keçirilir. Rektor Tuğ kənd Uşaq musiqi məktəbinin hazırladığı konsert proqramının da “Şuşa İli”nə töhfə olduğunu vurğuladı, məktəbə fəaliyyətində uğurlar arzuladı.

Sonra söz musiqiyə verildi.

Musiqi məktəbinin müəllim və şagird kollektivindən ibarət “Tuğ” ansamblı tərəfindən Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzulu əsərləri, xalq mahnıları və rəqsləri təqdim edildi.

İlk olaraq ansamblın ifasında “Şur” təsnifi səsləndirildi. Məktəbin 5-ci sinif şagirdi Güləhməd Talıbov mərhum xanəndə, bəstəkar Əlibaba Məmmədovun “Mənim Azərbaycanım” mahnısını ifa etdi. Məktəbin direktoru Səadət Cavadovanın ifasında Ramiz Mirişlinin “Qızlar bulağı”, müəllim Şəhriyar Musayevin (kamança) ifasında Fikrət Əmirovun “Laylay” mahnıları səsləndi.

Təhsil ocağının müəllimləri Nurlan Cəbizadə, Fuad Göyüşov, Ceyhun Qurbanov, məktəbin məzunu Zəhra Yusibova, IV sinif şagirdi Aylin İmanova və xor kollektivinin çıxışları da alqışlarla qarşılandı. İfaçıların təqdim etdiyi Qara Qarayevin “İldırımlı yollarla” baletinden rəqs, Həsən Rzayevin “Çahargah rapsodiyası”, Arif Məlikovun “Sehrli xalat” filminə yazdığı musiqi, Fikrət Əmirovun “Min bir gecə” baletinden rəqs, Vaqif Mustafazadənin “Fantaziya”, Cahangir Cahangirovun “Ana yurdum”, Emin Sabitoğlunun “Limanda”, “Azərbaycan” mahnıları və xalq rəqsi “Qavalla rəqs” tamaşaçıların könlünü oxşadı.

Musiqi axşamında həmçinin Vətən müharibəsi qaziləri, müğənnilər İdris Hüseynov Süleyman Ələsgərovun “Vətənimdir”, Məbud Əhmədov isə “Şuşanın dağları” mahnısını ifa etdi.

Sonra musiqi məktəbinin müəllimi Ceyhun Qurbanovun sözləri Baba Vəziroğluna məxsus olan “Canımız Vətən” adlı mahnıya çəkilən klipi təqdim edildi.

Konsert proqramı məktəbin xor kollektivinin (xormeyster – Amaliya Qasımova) ifasında Eldar Mansurovun “Sabaha inam” mahnısı ilə başa çatdı.

Tədbirin sonunda çıxış edən Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və Tuğ kənd Uşaq musiqi məktəbinin direktoru Səadət Cavadova konsert haqqında təəssüratlarını bölüşdülər.

**Nurəddin**

# “Şuşa İli” münasibətilə



Yerlərdəki mədəniyyət müəssisələrində “Şuşa İli” münasibətilə müxtəlif tədbirlər keçirilir. Ağstafa Regional Mədəniyyət İdarəsi (RMİ) Ağstafa rayon MKS-nin Uşaq şöbəsinin əməkdaşları tərəfindən Ağstafa şəhər 2 saylı uşaq bağçasında “Əziz Şuşa, sən azadsan!” adlı sərgi təşkil edilib.

Gəncə RMİ-nin təşəbbüsü ilə “Şuşa İli” çərçivəsində Z.Qayıbov adına Gəncə şəhər 5 nömrəli Uşaq musiqi məktəbində aşıq müsabiqəsi keçirilir. Gəncədə ilk dəfə təşkil edilən müsabiqənin ilk seçim turunda Gəncə və Naftalan şəhərlərindən, Kəlbəcər, Goranboy, Tovuz, Göygöl, Laçın, Şəmkir və Samux rayonlarından 8-30 yaş arası 50 nəfər iştirak edib.

Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində “Mədəniyyət incisi – Şuşa” adlı tədbir təşkil edilib. Tədbirdə mərkəzin əməkdaşı Gülnar İsgəndərova eyniadlı məruzə ilə çıxış edib.

Masallı RMİ Cəlilabad rayon MKS-nin Privolnoye kənd kitabxana filialında “Şuşa - ruhumuzun ünvanı” adlı sərgi təşkil edilib.

Sabirabad RMİ-nin elan etdiyi “Mədəniyyətimizin beşiyi – Şuşa” adlı yaradıcılıq müsabiqəsinə qeydiyyat davam edir. Müsabiqədə Şirvan şəhəri, Sabirabad, Saatlı və Hacıqabul rayonlarından musiqi, rəsm və bədii qiraət sənət növləri üzrə uşaq, yeniyetmə və gənclər iştirak edə bilərlər.




Ağcabədi RMİ-nin əhatə etdiyi Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Sulduz Nəsibov adına Güllücə kənd Mədəniyyət evində “Mənim Şuşam” adlı rəsm müsabiqəsi keçirilib. Müsabiqədə fərqlənən əl işləri Mədəniyyət evinin təsviri sənət guşəsində “2022-ci il “Şuşa İli”dir” başlığı altında nümayiş etdirilib.

# Bizə Zəfər yaşadanlar unudulmur

Sumqayıt RMİ Sumqayıt Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzi “Dostluq” mədəniyyət evinin kollektivi Vətən müharibəsi şəhidi Nurlan Nuruzadənin ailəsi ilə görüşüblər. Görüş zamanı şəhidin keçdiyi döyüş yolundan söhbət açılıb, ailəyə maddi və mənəvi dəstək göstərilib.

Lənkəran RMİ Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində 2016-cı ilin Aprel döyüşlərinin şəhidləri Rusif Ağayev və Əlizaman İslamovun xatirəsinə həsr olunmuş sərgi təşkil edilib.



Xaçmaz RMİ Qusar rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Ümüd Xəncəlovun xatirəsinə həsr olunmuş “Zəfər tarixini yazanlar” adlı tədbir keçirilib.



Biləsuvar RMİ Salyan rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Vətən müharibəsinin şəhid kapitanı Kamil Şirinovun doğum günü münasibətilə “Tarix yazan qəhrəman” adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sabirabad RMİ Saatlı Dövlət Rəsm Qalereyasında “Aprel döyüşləri böyük Zəfərin başlanğıcıdır” adlı rəsm sərgisi təşkil edilib. Sərgidə rəssamlıq dərnəyi üzvlərinin əl işləri nümayiş olunub.

İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzində Ağdaban faciəsinin 30-cu ildönümünə həsr olunmuş “Erməni vəhşiliyinin şahidi – Ağdaban” adlı tədbir keçirilib. Tədbirdə faciə haqqında videoçarx nümayiş etdirilib.

Gəncə RMİ Gəncə şəhər MKS-nin 20 nömrəli kitabxana filialında II Qarabağ müharibəsi qazisi Ruslan İsmayılov və şəhid Natiq Əliyevin qardaşı Samir Əliyevlə görüş keçirilib.



Qubadlı rayon Mərkəzi Kitabxanası və rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları tərəfindən Milli Qəhrəman, Vətən müharibəsi şəhidi, polkovnik Şükür Həmidovun ailəsi ziyarət olunub.

# “Muzeyi peşəkardan öyrənək”

## Regional idarələr üzrə təlim-seminarlar başlayıb

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi tərəfindən regionlardakı muzeylərin fəaliyyətinin daha da təkmilləşdirilməsi, muzey əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədilə “Muzeyi peşəkardan öyrənək” adlı layihə həyata keçirilir.




Layihə çərçivəsində ilk təlim-seminar Gəncə şəhərində təşkil olunub. Gəncə Regional Mədəniyyət İdarəsi üzrə fəaliyyət göstərən muzey və Heydər Əliyev mərkəzləri əməkdaşlarının qatıldığı seminarda Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli və muzeyin fond işləri üzrə direktor müavini Aida Axundova tərəfindən “Muzey sahəsində müasir çağırışlar”, “Fond və mühafizə işi”, “Dünya muzeyləri” mövzuları üzrə təlim-müzakirə keçirilib.

Seminarda Gəncə və Naftalan şəhərləri, Xocalı, Samux və Goranboy rayonları üzrə Heydər Əliyev mərkəzləri, tarix-diyarşünaslıq muzeyləri, rəsm qalereyaları və ev muzeyləri – ümumilikdə 14 mədəniyyət müəssisəsindən 90-dək muzey əməkdaşı iştirak edib.

Layihənin digər regional idarələr üzrə fəaliyyət göstərən muzey müəssisələrinin əməkdaşları üçün təşkili də nəzərdə tutulur.

# Gəncədə VIII Muğam Televiziya Müsabiqəsinin seçim turu

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Mədəniyyət Nazirliyinin dəstəyi, Heydər Əliyev Fondu və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən VIII Muğam Televiziya Müsabiqəsinin seçim turu gerçəkləşib.

Seçim turunda iştirak edən 13 nəfər iştirakçını Xalq artistləri Nəzakət Teymurova, Mənsum İbrahimov, Əməkdar artist Fərqanə Qasımova və Yazıçılar Birliyinin katibi İlqar Fəhmidən ibarət münsiflər heyəti qiymətləndirib.

İştirakçıları Gəncə filarmoniyası Göygöl Dövlət Mahnı və Rəqs Ansamblı müşayiət edib.

Sonda münsiflər heyətinin qərarına əsasən, iştirakçılardan Tunar Salahov, Abbas Mənsumov, Səlim Əliyev, Nuranə Tanrıverdiyeva, Səxavət və Nəriman Məmmədov qardaşları seçilərək növbəti mərhələdə yarışmaq hüququ qazanıblar.

# Unudulmaz aktyor xatırlandı

Milli teatr və kino sənətimizin inkişafında onun da öz yeri, öz payı var. Xarakterik rolları, səhnə siması, fərqli oyun üslubu onu tamaşaçıların sevimlisinə çevirmişdi.

Kütləvi tamaşaçının milli kino nümunələrindən də yaxşı tanıdığı görkəmli sənətkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti İsmayıl Osmanlı (1902-1978) anadan olmasının 120-ci ildönümündə yenə sevgi və ehtiram işığında xatırlandı.

Aprelin 10-da Akademik Milli Dram Teatrında müqtədir aktyorun həyat və sənət yoluna nəzər xarakterli xatirə gecəsi keçirildi.

Gecəni giriş sözü ilə Xalq artisti Hacı İsmayılov açaraq sənətkarın zəngin həyat və sənət yolu haqqında tamaşaçılara məlumat verdi. İsmayıl Osmanlını bu teatrın səhnəsində izləmək imkanına sahib olmasından qürurla söz açan aktyor onun müxtəlif çalarlı xarakterlərə sənət təcrübəsi və istedadı sayəsində mütləq fərqlilik qatdığını dedi. Bildirdi ki, İsmayıl Osmanlı dövrün böyük rejissorlarının da sevimli ifaçısı olub. Rolların miqyası arasında heç vaxt fərq qoymayan, özünün şöhrətinə, istedadına, keçdiyi böyük sənət yoluna rəğmən epizodik rollarda belə həvəslə oynayan aktyor məhz bu nüansa görə səhnəyə yeni gələn nəsillərə də yaxşı nümunədir.




İsmayıl Osmanlının Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərindən də danışan Hacı İsmayılov onun yaratdığı obrazlara nəzər saldı, zamanında dövlət tərəfindən layiqli qiymət aldığını qeyd etdi.

Diqqətə çatdırıldı ki, sənətkar vaxtilə bu teatrın səhnəsində görkəmli rejissor, SSRİ Xalq artisti Mehdi Məmmədovun quruluş verdiyi "Dəli yığıncağı" tamaşasında Hacı Naib obrazını fərqli kolorit və çalarlarla, yüksək ustalıqla yaradıb və ondan sonrakı aktyorlar onun rolundan bir nümunə kimi yararlanıblar. Vurğulandı ki, İsmayıl Osmanlının çəkildiyi ekran əsərləri – "Nəsimi", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm" və s. filmlər də onun böyük aktyorluq ustalığının nümunələridir.

Daha sonra yeni quruluş və səhnələşdirmədə teatrın repertuarında yer alan "Dəli yığıncağı" tamaşası nümayiş olundu.

Böyük ədib Cəlil Məmmədquluzadənin eyniadlı pyesi əsasında hazırlanan, Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşçu rejissoru olduğu səhnə əsərinin bəstəkarı Xalq artisti Siyavuş Kərimi, səhnə tərtibatçısı Xalq rəssamı Nazim Bəykişiyevdir.




Səhnə əsərində Xalq artistləri Nurəddin Mehdixanlı (Fazil Küleyni), Cəfər Namiq Kamal (Hacı Mədinə), Hacı İsmayılov (Hacı Əbdül Əzim), Rafiq Əzimov (Nəcəfül Əşrəf), Əli Nurzadə (Kərbəlayı Türbət), Əməkdar artistlər Sənubər İsgəndərli (Doktor Lalbyuz), Elşən Rüstəmov (Molla Abbas), Vəfa Rzayeva (Pırpız Sona), Elnar Qarayev (Hacı Naib), Elşən Cəbrayılov (Formasyon Rüstəm), Vüsal Mustafayev (Sərsəm Salman), Aslan Şirin (Həmzat Qurban), Əlvida Cəfərov (Hacı Məmmədəli), Mirzə Ağabəyli (Hacı Cəfər), Elxan Quliyev (Hacı İslam), Kazım Həsənquliyev (Məşədi Hacı), Mətanət Atakişiyeva (Məşədi Zeynəb) və başqaları rol alıb.

Onu da qeyd edək ki, tamaşa 2019-cu ildə C.Məmmədquluzadənin 150 illik yubileyi münasibətilə hazırlanıb.

**Həmidə**

# Tammetrajlı bədii film layihələrinə dəstək

## Müsabiqəyə yekun vurulub

Xəbər verdiyimiz kimi, 2021-ci ilin dekabr ayında Mədəniyyət Nazirliyi tərəfindən "Tammetrajlı bədii film layihələrinə dəstək – 2022" müsabiqəsi elan olunmuşdu.

Milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan müstəqil prodüser mərkəzlərinin və istehsal şirkətlərinin fəaliyyətini stimullaşdırmaq, milli-mənəvi və ümumbəşəri dəyərləri filmlərlə təbliğ etmək, kino peşəkarlarının təcrübələrini daha da artırmaq məqsədilə keçirilən müsabiqəyə yekun vurulub.

Müsabiqəyə ümumilikdə 45 layihə təqdim edilib. Münsiflər heyətinin müzakirələri və qiymətləndirməsi nəticəsində 45 layihədən 12-si növbəti – "pitçinq" mərhələsinə buraxılıb.

Pitçinq mərhələsi martın 18-də Dövlət Film Fondunda təşkil olunub. Fondun "YouTube" kanalı vasitəsilə canlı yayımlanan pitçinqdə müəlliflər tərəfindən layihələrin təqdimatı həyata keçirilib. Layihələr münsiflər tərəfindən qiymətləndirlib.

Münsiflər heyətinin yekun rəyi əsasında ümumilikdə 7 layihəyə müəyyən edilmiş məbləğdə dəstək göstərilməsi qərara alınıb.

Qalib layihələr aşağıdakılardır:
"Ata və oğullar" ("Buta Film" MMC)
"Əlvida, noyabr" ("Ultra Production")
"Qıfıl" ("Nova Gorica" Kino Mərkəzi MMC)
"Mavi sviterli adam" ("Mandarin Agency" Co)
"Müqəddəs inək" ("Narimanfilm" MMC)
"Ölü Həsən" ("Ultra Production")
"Uçurum" ("Cinemedia" MMC)

# "Xoreoqrafiya süitası"

## BXA yetirmələrinin tamaşası

Bakı Xoreoqrafiya Akademiyası (BXA) tam orta təhsil pilləsinin şagirdləri və orta ixtisas təhsil pilləsi tələbələrinin iştirakı ilə "Xoreoqrafiya süitası" adlı tamaşa hazırlanıb.



Tamaşanın Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində təqdimatına mədəniyyət və ictimaiyyət nümayəndələri, gənc fəallar qatılıblar.

Xoreoqrafik səhnə əsərində P.İ.Çaykovski, V.A.Motsart, A.L.Vivaldi, G.Maler, Ş.F.Quno kimi dünya bəstəkarlarının əsərləri əsasında müxtəlif rəqs nömrələri nümayiş etdirilib.

Tamaşanın bədii rəhbəri BXA-da rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmmədzadə, quruluşçu xoreoqrafı Əməkdar müəllim Pellumb Aqalliyay, xoreoqraf-repetitoru isə Pərvin Nəcəfovadır.

Tələbələrin çıxışı seyrçilərdə dərin təəssürat oyadıb. Tamaşa böyük maraqla qarşılanıb.

# Tələbələrin "Məhv olmuş gündəliklər"i

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Teatr sənəti fakültəsinin tələbələri İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" əsəri əsasında eyniadlı tamaşanı nümayiş etdiriblər.

Tamaşa Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin H.Abbasov adına Mədəniyyət Mərkəzində (Maştağa qəsəbəsi) təqdim olunub.

ADMİU-dan bildirilib ki, məşhur səhnə əsəri tələbələrin ifasında rəğbətlə qarşılanıb.

Qeyd edək ki, kursun müəllimləri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kəmalə Mehdiyeva və dosent Nadir Hüseynovdur. Kafedra müdiri Əməkdar artist, professor Gülşad Baxşıyevadır.

# Milli Konservatoriyada Tar festivalı

## "Şuşa İli" soraqlı tədbirdə peşəkar tarzənlər iştirak edib

Azərbaycan Milli Konservatoriyasında (AMK) 4-7 aprel tarixində təşkil olunan Tar festivalı başa çatıb. Festival "Şuşa İli" münasibətilə gerçəkləşib. Aprelin 7-də konservatoriyada festivalın bağlanış mərasimi keçirilib.

AMK-nın rektoru, Xalq artisti, professor Siyavuş Kərimi çıxışında bildirib ki, ilk dəfə təşkil edilən festival böyük maraq doğurub: "Festival hətta tarını yerə qoymuş yaşlı ifaçıları belə yenidən bu alətə sarılmağa sövq edib. Bu, insanlarda tar alətinə olan əsl sevginin bariz nümunəsidir. Bu münasibəti nəzərə alaraq kamança, qanun və balaban alətləri üzrə festivallar da təşkil edəcəyik. Hətta xaricdən də ifaçılar dəvət etmək istəyirik. Qoy dünyanın müxtəlif yerlərindən, Türkiyədən, İrandan, Özbəkistan və digər ölkələrdən də peşəkar musiqiçilər gəlib öz məharətlərini bu səhnədə göstərsinlər".

Rektor ilk festivalda tar ifaçılığında öz sözünü demiş ifaçılarla yanaşı, gənc tarzənlərin də həvəslə, məharətlə iştirak etdiklərini bildirib: "Onların hər biri bu gün ölkəmizi dünyanın müxtəlif ölkələrində layiqincə təmsil edirlər. Bu, milli-mənəvi dəyərlərimizin təbliğatında ən əsas işlərdən biridir. Bir daha bütün festival iştirakçılarını təbrik edir onlara təşəkkürümü bildirirəm. Gələn il yenidən bu festivalda görüşərik".

Siyavuş Kərimi festival iştirakçılarına AMK-nın təşəkkürnamələrini təqdim edib.

Daha sonra tədbirin bədii hissəsi başlayıb. Festivalda iştirak etmiş ifaçıların bir qismi musiqi nömrələri ilə çıxış ediblər.

**Lalə**

# "Beşmanatlıq gəlin" yenidən səhnədə

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yeni quruluşlu retro komediya – "Beşmanatlıq gəlin" aprelin 24-də növbəti dəfə nümayiş etdiriləcək.



Bəstəkar Səid Rüstəmov və yazıçı-dramaturq Məmməd Səid Ordubadinin birgə ərsəyə gətirdiyi, 1940-90-cı illərdə müxtəlif quruluşlarda teatrın repertuarında yer almış "Beş manatlıq gəlin" 2020-ci ildə səhnəyə qayıtsa da, pandemiya səbəbindən nümayişi iki ilədək ləngidi.

Məişət mövzulu komediyaya teatrın rejissoru, Əməkdar incəsənət xadimi Əsgər Əsgərov quruluş verib. Tamaşada Xalq artistləri İlham Namiq Kamal, Fatma Mahmudova, Əməkdar artistlər Ələkbər Əliyev, Nadir Xasıyev, İqrar Salamov, aktyorlar Möylə Mirzəliyev, Elxan İsmayılov, Gülcahan Salamova, Ülviyyə Əliyeva, Mehriban Zaliyeva, Türkel Tariqpeyma, Səmədzadə Xasiyev, Gülnarə Əzizova, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Ruslan Mürsəlov, Nigar Qarayeva çıxış edəcəklər.

Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Leyla Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, dirijoru Səməd Süleymanlı, konsertmeysteri Fidan Babayeva, rejissor assistenti Tamilla Aslanovadır.

# Şuşada göstərəcəyimiz ilk tamaşa "Arşın mal alan" olacaq




Azərbaycanın qocaman, nəhəng sənət ocaqları sırasında Şuşa Dövlət Musiqili Dram Teatrının da özünəməxsus yaradıcılıq rolu var. Şuşada ötən əsrin 40-cı illərində dövlət statuslu teatr olsa da, sonradan mərkəzi hökumətin qərarı ilə Azərbaycanın bir sıra rayon-şəhər teatrları kimi özünümaliyyələşdirməyə keçirilib və fəaliyyətini dayandırıb.

Şuşa Dövlət Musiqili Dram Teatrı bir də 1990-cı ildə bərpa olunub. Amma yaradıcı kollektivin sevinci uzun sürməyib. 1992-ci ilin mayında Şuşanın işğalı ilə teatr da yurd-yuvasından didərgin düşüb.

Bu müddətdə teatrın əməkdaşları çox çətinliklərə, məhrumiyyətlərə dözərək Şuşaya qayıdacaqları günü səbirsizliklə gözləyiblər. 2020-ci ilin 8 noyabr Zəfəri ilə o gün gəldi və bütün xalqımız kimi Şuşa teatrının da nisgilinə son qoyuldu. 2022-ci ilin dövlət başçısı tərəfindən "Şuşa İli" elan olunmasını Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi də böyük ruh yüksəkliyi ilə qarşılayıb.

Kollektiv doğma şəhərə 32 il əvvəl, bərpadan sonra teatrın açılışında nümayiş olunmuş tamaşa – Üzeyir Hacıbəylinin ölməz "Arşın mal alan"ı ilə qayıtmaq istəyir. Bu fikri AZƏRTAC-a müsahibəsində teatrın direktoru, Əməkdar artist Yadigar Muradov vurğulayıb: "Biz kollektivimizlə birgə söz vermişik ki, Şuşaya qayıdış başlayanda, hava şəraitindən asılı olmayaraq, məhz binamızın yerində, daşların üzərində "Arşın mal alan"ı oynayaq. Bu bizim arzumuzdur...".

Direktor müsahibədə sənət ocağının tarixindən də söz açıb. Bildirib ki, Şuşanın mədəni mühiti bütün dövrlərdə sözlə, səslə, musiqi ilə, bir sözlə, incəsənətlə nəfəs alıb. XIX əsrin ortalarından Şuşanın mədəni həyatında bir canlanma duyulmaqda idi. 1848-ci ildə Şuşada tamaşaların oynanması üçün teatr və sirk səhnələri vardı. Bunu tarixi sənədlər də təsdiqləyir.

Şuşada teatrın təşəkkül tapmasında Əbdürrəhim bəy Haqverdiyevin əvəzsiz xidmətləri olub. Mütərəqqi ideyalarla zəngin olan Şuşanın teatr mühitinin təsiri ilə Qarabağın bir çox məkanlarında – Ağdamda, Füzulidə teatr truppaları yaradılıb. Şuşa teatr mühitinin yetirmələri sonradan Azərbaycan teatrının təşəkkül və inkişafında mühüm rol oynayıblar.

1943-cü ildə, müharibənin (1941-1945) çətin dövründə Şuşada Dövlət Musiqili Dram Teatrı yaradılıb. Bu, şəhərin mədəni həyatında bir sənət hadisəsi idi. Əzizağa Məmmədov teatra bədii rəhbər təyin olunub. Həmin il Şuşa teatrının iki aktyoru – Əzizağa Məmmədov və Cəlil Bağdadbəyov respublikanın "Əməkdar artisti" fəxri adına layiq görülüblər. Teatrın maraqlı repertuarı formalaşıb.

Lakin SSRİ Nazirlər Sovetinin 6 fevral 1949-cu il qərarına istinadən incəsənət beşiyi olan Şuşada dövlət teatrını bağlayıblar. Yadigar Muradov deyir: "Əgər, doğrudan da, maliyyə çətinliyi var idisə, niyə elə həmin ildə Maksim Qorki adına Stepanakert Dövlət Dram Teatrı açıldı?! O vaxtdan sonra Şuşada dövlət teatrı olmadı. Amma buna baxmayaraq, Şuşada daim teatr mühiti olub".

Bundan sonra şuşalılar öz teatrlarını yaşatmaq üçün yerli həvəskarlardan ibarət dram dərnəyini formalaşdırıblar. Ötən əsrin 50-ci illərində dərnəyin repertuarında müxtəlif səpkili tamaşalar var idi. 1982-ci ildə Şuşada Mədəni-Maarif Texnikumunun açılması da şəhər mədəniyyət evinin nəzdində fəaliyyət göstərən dram dərnəyinin yaradıcı qüvvəsini xeyli gücləndirib: "Artıq öz repertuarı və istedadlı yaradıcı kollektivi ilə yaxın-uzaq bölgələrə səs salan dərnək 1987-ci ildən Şuşa Xalq teatrı adını daşımağa başladı. Bu teatrın tezliklə dövlət statuslu teatra çevriləcəyi artıq heç kəsdə şübhə doğurmurdu. Teatrsevər şuşalıların bu intizarına 1990-cı il mayında son qoyuldu. Azərbaycan Nazirlər Sovetinin 11 may 1990-cı il qərarına əsasən Mədəniyyət Nazirliyinin 25 may 1990-cı il tarixli əmri ilə Şuşa Dövlət Musiqili Dram Teatrı yaradıldı", – deyə Y.Muradov bildirib.

Şuşada fəaliyyət göstərdiyi qısa müddətdə teatrda Süleyman Ələsgərov və Şıxəli Qurbanovun "Özümüz bilərik" musiqili komediyasının, Eldar Baxışın "Uzun Həsən" tarixi dramının tamaşaya qoyulduğunu deyən direktor kollektivin 1992-ci ildən sonrakı həyatından da bəhs edib: "Şuşa teatrı 1992-ci ilin avqust ayında Bakıda Gənc Tamaşaçılar Teatrının binasında yerləşdirildi.



Teatrın repertuarında müxtəlif janrlı əsərlər – S.Qənizadənin "Ayının min oyunu", V.Qaufun "Xəlifə Leylək", B.Appayevin "Gözəlləri necə qaçırmalı" kimi maraqlı tamaşalar vardı. Kollektiv tez-tez Vətən keşiyində duran əsgərlər qarşısında "Nəğmədir, gülüşdür hər dərdə məlhəm" tamaşa-konsert proqramı ilə də çıxış edirdi.

2005-ci ildə "Savalan" kinoteatrının binasını bizə verdilər. Lakin şəraitsizlik ucbatından biz burda tamaşalar göstərə bilmirdik. Mədəniyyət Nazirliyinin əmri ilə Bakıdakı teatrların səhnəsində ayda 2 dəfə bizim çıxış etməyimiz üçün şərait yaradılmışdı. Bu illər ərzində çox istedadlı həmkarlarımız az maaşa, şəraitsizliyə dözməyib getsə də, qalanlar da oldu. Üzeyir bəyin sözü olmasın, "bizə elə o qalanlar lazımdı". Bu gün də teatrımızın yaşamasına səbəbkar onlardı. Sonra da bu bina əsaslı təmir olunaraq 2018-ci ildə Şuşa teatrına verildi. Hazırda burada fəaliyyətimizi davam etdiririk...".

Kollektiv 2012-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən M.F. Axundzadənin 200 illik yubileyi münasibətilə keçirilən Milli Teatr Festivalında uğurla çıxış edərək diploma layiq görülüb. Sonra Mədəniyyət Nazirliyinin dəstəyi ilə Tatarıstanın Kazan şəhərində keçirilən türk xalqlarının "Nauruz" Beynəlxalq Teatr Festivalında iştirak edib.

2018-ci ildə teatra verilən binada yaradıcı fəaliyyət üçün zəruri şərait var. Teatrda 30-a yaxın aktyor çalışır ki, onlardan biri Xalq artisti, 5 nəfər Əməkdar artistdir.

Direktor bildirir ki, hazırda "Şuşa İli" ilə bağlı yeni bir tamaşa üzərində ciddi məşqlər gedir: "Həmçinin repertuardan çıxan bir çox tamaşalar vardı ki, biz onları yenidən bərpa edirik. Daha çox Qələbə əhval-ruhiyyəli əsərlər üzərində işləyirik. Çalışırıq ki, teatrın repertuarı həmişə yenilənsin, baxımlı olsun. Teatrın 100 nəfərlik səhnə zalı həmişə dolu olub, pandemiyadan sonra isə qaydalara uyğun fəaliyyət göstəririk.

İlk "Arşın mal alan" tamaşasını səhnələşdirəcəyik, inşallah. "Səhnə" teatrının bədii rəhbəri Xəqani Əliyev "Pənahəli xan" tarixi dramını yazıb. Nəzərdə tutmuşam ki, bu əsər əsasında tamaşa hazırlayım. İnşallah, Şuşaya qayıtdıqdan sonra bu əsərə mütləq müraciət edəcəyik...".

№28 (1901)
13 aprel 2022
www.medeniyyet.az

# Tarixçi-etnoqraf, akademik Teymur Bünyadov dünyasını dəyişib

Tanınmış tarixçi-etnoqraf, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Teymur Əmiraslan oğlu Bünyadov 2022-ci il aprelin 8-də, ömrünün 95-ci ilində vəfat edib.



Akademik Teymur Bünyadovun vəfatı ilə bağlı Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət rəsmiləri, elm xadimləri adından rəsmi nekroloq yayımlanıb.

Nekroloqda bildirilir ki, Teymur Bünyadovun vəfat etməsi Azərbaycan elmi ictimaiyyətinə ağır itkidir.

Teymur Bünyadov 1928-ci il yanvarın 20-də Qazax rayonunun İkinci Şıxlı kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra o, 1946–1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində ali təhsil alıb, 1951-ci ildə isə SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasına daxil olub və burada 1955-ci ildə namizədlik dissertasiyası müdafiə edib. 1968-ci ildə doktorluq dissertasiyası müdafiə edərək arxeologiya və etnoqrafiya elmləri sahəsində respublikamızda ilk tarix elmləri doktoru alimlik dərəcəsi alıb.

1955-1993-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışıb, 1993-cü ildən ömrünün sonunadək AMEA-nın hazırkı Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Tarixi etnoqrafiya şöbəsinin müdiri olub. 1970-ci ildə professor elmi adına layiq görülüb. 1989-cu ildə AMEA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilib.



Nekroloqda qeyd olunur ki, akademik Teymur Bünyadov yarım əsrdən artıq bir dövr ərzində respublikada etnoqrafiya elminin inkişafına sanballı töhfələr verib. 30-dan çox kitab və monoqrafiyanın müəllifi olan alimin Azərbaycanda əkinçilik ənənəsi, təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyət, sənətkarlıq və xalq məişəti ilə bağlı silsilə tədqiqatları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Azərbaycanın etnoqrafiyasına dair fundamental üçcildlik onun bilavasitə rəhbərliyi və yaxından iştirakı ilə işıq üzü görüb.

Teymur Bünyadov yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük qüvvə sərf edib. O, elmi yaradıcılığını pedaqoji fəaliyyətlə ahəngdar şəkildə əlaqələndirərək uzun illər ölkənin aparıcı ali təhsil ocaqlarında mühazirələr oxuyub. Bir sıra mötəbər beynəlxalq konfrans və simpoziumlardakı çıxışları ilə Azərbaycan etnoqrafiya elmini layiqincə təmsil edib. O, eyni zamanda bədii və publisistik fəaliyyəti ilə tarixi-mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin təbliğində təqdirəlayiq xidmətlər göstərib.

Teymur Bünyadov respublikanın elmi-mədəni həyatında yaxından iştirak edib, birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin (1995-2000) deputatı seçilib.

Akademik Teymur Bünyadovun uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. Azərbaycan elminin inkişafında xidmətlərinə görə o, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilib.

Akademik Teymur Bünyadov aprelin 9-da Bakıda, II Fəxri xiyabanda torpağa tapşırılıb. Dəfn mərasimində AMEA-nın elmi müəssisə və təşkilatlarının rəhbərləri, Milli Məclisin deputatları, elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Allah rəhmət eləsin.

# Əsir yurdun azadlığı ən böyük arzusu idi

2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsinin 20 yaşlı şəhidi Altay Mövlanov haqqında sizlərə söz açacağam. O, Füzuli istiqamətində gedən ağır döyüşdə şəhidlik zirvəsinə ucalıb. Vətən yolunda canını qurban etdiyinə görə onun bu ölümü ömrünün sonu olmur. Altay əbədiyyət adlı dünyasına qovuşmaqla özünə ürəklərdə yurd-yuva qurur.



Altay Tahir oğlu Mövlanov 5 avqust 2000-ci ildə dağlar diyarı Lerik şəhərində dünyaya gəlmişdi. Vətən, torpaq sevgisi ilə boya-başa çatır, Altay 2018-ci ildə əsgəri xidmətə yollanır. Ön cəbhədə xidmət edir və bunu özünə şərəf bilir. Həm də səmimiliyi, mərdliyi Altaya əsgər və zabitlərin hörmətini qazandırır. O, hərbi təlimlərdə fərqlənir, eyni zamanda nümunəvi xidməti ilə əsgər yoldaşlarında Vətənə, torpağa məhəbbət hissi yaradır.

Altay əsgərliyi başa vurub doğma Lerikə qayıdır. Lakin Vətən təəssüblü gənc bir aydan sonra düşməndən qisas almaqdan ötrü yenidən hərbiyə yazılır. 2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsi, Vətən savaşı başlanır. Müharibə ölümitim olsa da, Altay bunu sevinclə qarşılayır. Ona görə ki, Vətən torpağını azad etmək, yağı düşməndən intiqam almaq zamanı çatmışdı. Əldə silah ilk gündən odun-alovun içinə atılır. Vətəni öz qanı bahasına yaşadan qeyrətli oğullardan biri kimi qorxmadan, çəkinmədən düşmən üzərinə yeriyir.

Hər qarış Vətən torpağı uğrunda canından-qanından keçməyə hazır olan Altay Füzuli istiqamətində rəşadətlə, mətanətlə döyüşür və erməni dığalarının texnikasını sıradan çıxarır, canlı qüvvəsini məhv edir. Oktyabrın 18-də isə Vətən yaşasın deyə sinəsini gülləyə sipər edir, qəhrəman döyüşçü əbədiyyətə qovuşur.

Vətən, torpaq uğrunda şəhid olanların ömrü əbədidir. Qərinələr keçəcək, yeni nəsillər tərəfindən Altay Vətənini özündən artıq sevən igid, mərd döyüşçü, layiqli vətəndaş kimi hər an ehtiramla xatırlanacaq. Dövlət başçısı tərəfindən layiq görüldüyü "İgidliyə görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları onun keçdiyi şərəfli yola nümunə olacaq. Ruhu şad olsun.

**Zəfər Orucoğlu**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Azərbaycan maarifçiliyinin parlaq səhifəsi

## İrəvan Müəllimlər Seminariyası – 140



"İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır".

Bu fikirlər Prezident İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunması haqqında 29 dekabr 2021-ci il tarixli sərəncamında yer alıb.

İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildiyi dövrdə (1827) bu qədim Azərbaycan şəhərində dini təhsillə yanaşı, dünyəvi təhsil də mövcud olub. Çar rejimi Cənubi Qafqaza hakim olandan sonra xalqların könlünü almaq və onları öz tərəfinə çəkmək məqsədilə ilk olaraq mədəni-maarif sahəsində addımlar atır, o cümlədən yerli kadrları yetişdirmək üçün işlərə başlayır.

1829-cu ildə Zaqafqaziya məktəblərinin nizamnaməsi qəbul olunur. İrəvan şəhərində 1932-ci ildə ilk təhsil ocağı – ikisinifli qəza məktəbi yaradılır. Qaza məktəbi 1839-cu ildə üçsinifli, 1869-cu ildə dördsinifli progimnaziya (1917-ci ilədək Rusiya imperiyasında oğlan və ya qızlar üçün natamam orta məktəb) və nəhayət, 1881-ci ildə gimnaziyaya – İrəvan Müəllimlər Seminariyasına çevrilir.

Mənbələrdə bu seminariyanın fəaliyyət göstərdiyi dövrdə ümumilikdə 600-ə yaxın azərbaycanlının təhsil aldığı bildirilir. Onu da diqqətə çatdıraq ki, görkəmli Azərbaycan maarifçisi, ədəbiyyatşünas, pedaqoq Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olub.

Təhsil ocağının ilk əsasnaməsinə görə, müəssisəyə 16 yaşdan yuxarı pravoslav oğlan uşaqları qəbul oluna bilirmiş. 1875-ci ildə qəbul edilən "Müəllimlər seminariyaları haqqında təlimat"da seminariyalarda pravoslavlarla yanaşı, müsəlmanların da təhsil almasına icazə verilib. Rusiya Dövlət Şurası 20 oktyabr 1880-ci ildə "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında" qərar qəbul edir. İrəvan Müəllimlər Seminariyası 8 noyabr 1881-ci ildə 9 müəllim və 42 tələbə ilə İrəvan Xalq Təsərrüfatı İnstitutunun indiki binasında fəaliyyətə başlayır. Seminariyanın ilk direktoru Yakob Stepanoviç Suşevski olur. Seminariyanın nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb də fəaliyyət göstərib. Tələbələr pedaqoji təcrübəni elə məktəbin özündə keçiblər.

Digər seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyasında da təhsil 4 il olub. Hər il hazırlıq qrupuna və birinci sinfə (kursa) tələbə qəbulu elan edilib. Birinci sinfə qəbul olunanlar ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən imtahan veriblər.

Seminariyanın nəzdindəki məktəbin müdiri ayrı-ayrı vaxtlarda V.A.Muxin, A.Suvorov olub. Aşağı hazırlıq sinfində azərbaycanlı uşaqlara həftədə 5 saat rus dili və digər fənlər öyrədilib. Azərbaycanlı uşaqlar rus dili, rus adət-ənənəsi, tarix və coğrafiyasını öyrəndikdən sonra xristian uşaqları ilə bir yerdə oxuya bilərdilər. Ancaq aşağı hazırlıq sinfinə rus dilini bilməyən uşaqlar qəbul olunub. Siniflər komplektləşdirilərkən şagirdlərin hazırlıq səviyyələri nəzərə alınıb. Rus dilində danışmağı bacaran, müəyyən hazırlıq səviyyəsi olan şagirdlər yuxarı hazırlıq siniflərinə, yaxud birinci sinfə qəbul edilib.



Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, Əməkdar elm xadimi Fərrux Rüstəmov araşdırmasında yazır ki, İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi, maarifçi-pedaqoq Axund Məmmədbağır Qazızadə olub. O, seminariyada 1897-ci ilə qədər ilahiyyat və Azərbaycan dilindən dərs deyib, daha sonra isə (1917-ci ilədək) yalnız ilahiyyat fənnini tədris edib. 1892-ci ildən başlayaraq seminariyada Azərbaycan dili dərslərini Mirzə Rəhim Xəlilov tədris edib. O, seminariyanı bitirib və bu vəzifəyə müəllimi Axund Məmmədbağır Qazızadənin təqdimatı əsasında götürülüb.

Seminariyada Azərbaycan məktəbləri üçün müəllimlərin hazırlanmasında M.Qazızadənin böyük xidmətləri olub. O, bütün bilik və bacarığını müəllim kadrların hazırlığına sərf edib. Ayrı-ayrı vaxtlarda Axund Məmmədbağır Kazımzadə, Mirzə Məmmədvəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov, Məmməd Axundov, Axund Məmmədbağır Tağızadə, Mirzə Cabbar Məhəmmədzadə seminariyada şəriət və ya Azərbaycan dili fənnini tədris ediblər.

Onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasında da təhsil ödənişli olub. Eyni zamanda tələbələrin müəyyən hissəsi dövlət vəsaiti hesabına oxuyub. Məsələn, 1907-ci ilin məlumatına əsasən, burada təhsil alan 70 nəfərdən yalnız 20 nəfəri öz hesabına oxuyub. Seminariyada azərbaycanlı, rus, erməni, gürcü və digər millətlərin nümayəndələri təhsil alıblar.

***

İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olub. Məktəbi həmin il 5 azərbaycanlı bitirib. XIX əsrin sonlarında Cənubi Qafqazda işləyən kənd məktəbləri müəllimləri və müdirlərinin xeyli hissəsi müxtəlif illərdə həmin seminariyada ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ qazanıblar. Seminariyanın pedaqoji şurasının qərarına əsasən, 1895-ci ildə Cəlil Mirzəyev, Tağı bəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Muğanlınski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına kənd müəllimi sənədi verilib. Məzunların təyinat üzrə kənd məktəblərində işləməsi məcburi olub. Seminariyanın 1910-cu il məzunu Mehdi Kazımova verilən sənəddən aydın olur ki, o, təyinat üzrə 6 il işləməlidir. Əks halda xəzinəyə 520 rubl ödəməlidir.

Əhməd bəy Qazıyev, Fərəməz Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, Əli Əşrəf Qazıyev, Abbas Qədimov, Mirzə Bağır Əliyev, İbrahim Şahtaxtlı, Vahid Musabəyov, Həbib bəy Səlimov, İbrahim Səfiyev, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Şamil Mahmudbəyov və başqaları ayrı-ayrı vaxtlarda seminariyanın məzunu olublar.

Seminariyanın bir sıra məzunları sonradan Azərbaycanda maarif və mədəniyyətin, ədəbiyyat və mətbuatın inkişafında silinməz iz qoyublar. Naxçıvanda doğulub Türkiyədə yaşamış məşhur rəssam İbrahim Safi (İbrahim Qafar oğlu Səfiyev; 1898-1983) Mustafa Kamal Atatürkün rəsmini çəkən (1924) ilk rəssamlardan olub. Onun Türkiyə ilə yanaşı, bir neçə Avropa ölkəsində sərgiləri təşkil edilib.

Haşım bəy Vəzirov (1868-1916) müxtəlif illərdə Azərbaycan və rus dillərində 7 mətbuat orqanının naşiri və redaktoru olub. O, həmçinin "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil", "Xan-xan" komediyalarını qələmə alıb.

Şair Cəlil Mirzəyev (Mirzə Cəlil Mirzəyev – Şürbi; 1874-1915) maarifçiliklə məşğul olub, Cəlil Məmmədquluzadənin təşviqi ilə teatr hərəkatına qoşulub, Naxçıvan səhnəsində qadın rollarını canlandırıb. Onun Mirzə Cəlilin "Ölülər" əsərində Kefli İsgəndərin prototipi olduğu bildirilir.

Maarif xadimi Mirzə Bağır Əliyev (1882-1938) erməni daşnaklarının 1918-1920-ci illərdə Naxçıvanda dinc əhaliyə qarşı törətdiyi qırğınlardan bəhs edən "Qanlı günlərimiz" əsərinin müəllifi kimi də tanınıb. O, Naxçıvan səhnəsinin tanınmış simalarından Xalq artisti Zərəş Həmzəyevanın atası olub.

***

Seminariyaya ayrı-ayrı vaxtlarda Yakob Stepanoviç Suşevski, İvan Andreyeviç Pasyuteviç, Mixail Alekseyeviç Miropiyev, Valentin Vasilyeviç Dubromin rəhbərlik ediblər.

İrəvan Müəllimlər Seminariyası 1915-ci ildə şəhərin qərbindəki Sərdarabada (indiki Armavir) köçürülür və 1918-ci ilə kimi fəaliyyət göstərir. Həmin il ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə və soyqırımı səbəbindən seminariya fəaliyyətini dayandırır. Müəllimlərin və tələbələrin bir qismi amansızcasına qətlə yetirilir. Sağ qalanlar isə doğma yurdlarını tərk edərək Türkiyə və Azərbaycana sığınırlar...

Cəmi 37 il fəaliyyət göstərmiş İrəvan Müəllimlər Seminariyası Azərbaycanda maarifçi mühitin inkişafında mühüm yol oynamaqla tarixi bir missiya yerinə yetirib, ayrıca bir mərhələ yaradıb.

**Savalan Fərəcov**

# "Molla Nəsrəddin"in davamçıları

## Ötən əsrin əvvəlində nəşr olunmuş satirik jurnallar latın qrafikalı əlifbada

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Molla Nəsrəddin" ədəbi məktəbinin davamçıları – "Bəhlul" (1907), "Arı" (1910-1911), "Mirat" (1910), "Kəlniyyət" (1912-1913) və "Məşəl" (1919-1920) satirik jurnalların latın qrafikalı əlifba ilə nəşrinin təqdimatı keçirilib.

Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bildirib ki, bu jurnallar ilk dəfə transfoneliterasiya edilərək yeni əlifbada nəşr olunub. Bu iş institutun Mətbuat tarixi və publisistika şöbəsi tərəfindən həyata keçirilib. Jurnalları ərəb qrafikasından transfoneliterasiya edən, biblioqrafik göstərici və qeydlərin müəllifləri filologiya elmləri doktoru, professor Vüqar Əhməd və böyük elmi işçi Dilbər Rzayevadır.

İ.Həbibbəyli diqqətə çatdırıb ki, milli mətbuatımızın ilki olan "Əkinçi" qəzeti, ilk satirik nəşrimiz olan "Molla Nəsrəddin" jurnalı da bundan öncə transfoneliterasiya edilərək işıq üzü görüb. "Ziya" qəzeti də mərhum Müştəba Əliyev tərəfindən çevrilib və çap edilib. "Ziyayi-Qafqaziyyə" isə çapa hazırdır, bu il çap edəcəyik. Həmçinin şöbədə "Molla Nəsrəddin" ensiklopediyası" da hazırlanaraq nəşr olunub. İlk dəfə Azərbaycanda bir mətbuat orqanının ensiklopediyası hazırlanıb.

Təqdimatda Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri Vüqar Əhmədi "Molla Nəsrəddin" ənənələri və satirik mətbuat" mövzusunda çıxış edib.



Bakı Dövlət Universitetinin kafedra müdirləri, professorlar Cahangir Məmmədli və Allahverdi Məmmədli "Molla Nəsrəddin" jurnalının ədəbi və mətbu məktəb kimi rolunu vurğulayıblar.

Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Bədirxan Əhmədli, Cəlil Məmmədquluzadənin Ev-Muzeyinin böyük elmi işçisi Yeganə Məmmədova, Ədəbiyyat İnstitutunun aparıcı elmi işçiləri, filologiya üzrə fəlsəfə doktoru Rauf Sadıxov, Gülbəniz Babayeva və başqa çıxış edənlər təxminən bir əsr sonra latın qrafikalı əlifbada çap olunan nəşrlərin əhəmiyyətindən söz açıblar.

**Həmidə**

№28 (1901)
13 aprel 2022
www.medeniyyet.az



# Rəssam Yuran Məmmədovun yaradıcılıq dünyası

Rənglərin mövcudluğu işıqda sübut olunur. Gecənin zülmətində ilahinin yaratdığı ən mükəmməl tablo adlandırdığımız dünya bir rəngdə görünür. Günəşin işığında isə dünyanın min bir rəngə boyanmış gözəlliyi gözlərimizə rənglərin dili ilə öz musiqisini "dinlədir".

Rəssamın yaradıcılığının cövhərini məhz rənglər təşkil edir. O rəssam bəxtəvər sənətkardır ki, göy qurşağının 7 rəngindən min bir rəng çaları yaradır, tablolarında gördüyümüz gözəllikləri yeni biçimdə göstərməyə müvəffəq olur. Yuran Məmmədov məhz rənglərin möcüzəvi estetik dilini bilən rəssamlardan olub. Cəmi 50 il ömür sürən rəssam fitri yaradıcılıq qabiliyyəti sayəsində ölümsüzlük qazanıb.

Yuran Əli oğlu Məmmədov (1934-1984) Naxçıvan şəhərində, qədim Şahab məhəlləsində anadan olub. Orta təhsilini Naxçıvanda alıb. Rəssamlığa olan maraq onu Bakıya, Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna gətirir. Burada Azərbaycanın tanınmış rəssamları Hafiz Məmmədov, Əyyub Hüseynov və Əyyub Məmmədovdan sənətin sirlərini böyük həvəslə öyrənir. 1955-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirən gənc rəssam Naxçıvana qayıdıb iki il şəhər məktəbində müəllim işləyir.

Rəssamlığa sonsuz sevgi ilə o, ali təhsil almaq üçün Sankt-Peterburq şəhərinə yollanır. İ.Repin adına Sankt-Peterburq Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutuna qəbul olunan (1957) Y.Məmmədov burada SSRİ Xalq rəssamı V.Oreşnikovun sinfində təhsilini davam etdirir. Rəssam 1962-ci ildə təhsilini bitirib bir müddət Sankt-Peterburqda qalır, "Lenfilm" studiyasında və Puşkin adına Akademik Dram Teatrında rəssam assistenti vəzifəsində işləyir. Bədii yaradıcılıq təcrübəsinə yiyələnən rəssamı doğma yurda sevgisi bir an belə rahat buraxmır. O, Naxçıvana dönərək ömrünü bu diyara bağlayır.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 20 ilə yaxın fəaliyyət göstərən Y.Məmmədov yüksək rəssamlıq şövqü ilə bir çox səhnə əsərlərinin bədii tərtibatını hazırlayır. Rəssamın uğurlu teatr dekorasiya işlərindən C.Məmmədquluzadənin "Ölülər", "Dəli yığıncağı", C.Cabbarlının "Oqtay Eloğlu", N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Ş.Qurbanovun "Sənsiz", H.Razinin "Günəş" və başqa səhnə əsərlərini göstərmək olar.

1970-ci ildən Rəssamlar İttifaqının üzvü olan Y.Məmmədovun sağlığında əsərlərindən ibarət fərdi sərgisi keçirilməyib. 50 illik yubileyi münasibətilə fərdi sərgisini təşkil etmək istəyən rəssama bu nəsib olmur.



Y.Məmmədov dəzgah rəssamlığı sahəsində bir çox uğurlu süjetli tablo, portret və mənzərə əsərləri yaratmışdır. O, əsərlərini yağlı boya və tempera texnikasında işləmişdir. Əsərlərini seyr etdikcə onun kamil kolorit ustası, rənglərin estetik mahiyyətini və qüvvətli təsir gücünü dərindən duyan istedadlı rəssam olduğunu əminliklə söyləmək olar. Əcəl rəssamın ömrünü tez bitirməsə idi, müdrik çağlarında neçə-neçə bitkin sənət əsərləri yaradacaqdı. Rəssamın süjetli tablolarından "Mənim ailəm" (1980), "Naxçıvan XII əsrdə" (1982), "Xalça toxuyanlar" (1982), "Dağlarda inşaatçılar" (1983), "Tütək səsi" (1984) və digərlərini qeyd etmək olar.



"Mənim ailəm" əsərində dağlar qoynunda yerləşən Naxçıvanın mənzərəsi fonunda rəssam ailəsi ilə eyvanda, masa ətrafında əyləşib. Əsər mükəmməl kompozisiya quruluşuna və kolorit həllinə malikdir. Arxa fonunda Yusif Küseyir oğlu türbəsinin təsviri diqqəti cəlb edir. Əlində fırça tutmuş rəssamın fikirli nəzərləri tamaşaçıya zillənib.



Samovar və masa üzərində kəsilmiş qarpız təsviri əsərin süjet xəttinin açılmasını şərtləndirir. İsti yay günlərindən birində rəssamın ailə üzvləri ilə istirahət etdiyi məqam canlı təbiət lövhələri ilə ahəngdar biçimdə əks olunub.



"Naxçıvan XII əsrdə" tablosu sanki ulu diyarın rənglərlə bəstələnmiş simfoniyasıdır. Nuh əyyamı, Əshabi-kəhf möcüzəsi, Əcəmi xilqəti, Möminə xatın şöhrəti, qədim İpək Yolu, yüklü dəvə karvanları, nağıl kimi şirin tarixi səhnələr əsərə tamaşa edərkən adamın gözləri önündə canlanır.

"Tütək səsi" adlı əsər də yüksək bədii-estetik məziyyətləri ilə seçilir. Rəssamın süjetli tablolarında mənzərə təsvirinin dominantlıq təşkil etməsi müşahidə olunur. Kompozisiyada açıq təbiət qoynunda, ağacların kölgəsində əsasına söykənən, qayğılı baxışlı qoca nəvələri ilə və ondan bir qədər solda milli geyimli qadın təsvir olunub. Nəvələrdən biri tütək çalır. Süjetdə kənd həyatının bütün incəlikləri vahid tabloda əksini tapıb. Təbii ki, bu məziyyət rəssamın ustalığından irəli gəlir.

Y.Məmmədov yaradıcılıq dövründə yaddaqalan portret və mənzərələr qalereyası yaratmışdır. "Xəyala dalmış qız" (1978), "Həyat yoldaşı" (1979), "Sevil" (1981), "Səhər" (1982), "Poeziyanın sehrli dünyası. Hüseyn Cavid" (1982), "Qadın" (1984), "Toğrul dünyası" və başqa portret əsərlərində rəssam qəhrəmanlarının daxili mənəvi dünyalarına nüfuz etmiş, onların hiss və həyəcanlarını ustalıqla göstərə bilmişdir.

Rəssam "Poeziyanın sehrli dünyası" əsərində Hüseyn Cavid dünyasını, onun həyat və yaradıcılığının facisini və dramatikliyini şairin mənalı çöhrəsində və onu əhatələyən fonda əsl reallığı ilə təsvir edib, göstərmişdir. Bu tablo şairə həsr edilmiş ən uğurlu əsərlərdən biridir. Hüsnü xuda şairi H.Cavidin yaradıcılıq dünyası və şairin həyat faciəsi qəhrəmanın surətinə və əsərin rəng qammasına hakimdir. Koloritin kontrastlığı məzmunun dramatikliyini daha da qüvvətləndirir.

Y.Məmmədov SSRİ Xalq rəssamı Toğrul Nərimanbəyov və Xalq yazıçısı Anarla yaxın dost olub. "Toğrul dünyası" adlı əsərində o, T.Nərimanbəyovu öz emalatxanasında, Anarın portreti ilə birgə təsvir edib. Rəssam dostu T.Nərimanbəyov haqqında müsahibələrinin birində deyirdi: "Cəsarətlə deyə bilərəm ki, hamıdan əvvəl Toğrula borcluyam.



Muxtar respublikamızın 50 illik yubileyi ərəfəsində Toğrulla birgə yaradıcılıq fəaliyyətim mənə çox şeylər öyrətdi. Onun yaradıcılıq yolu mənim üçün ilham mənbəyi, əsl sənətkarlıq məktəbi oldu...".

"Qədim, ulu Naxçıvan torpağı mənim əbədilik mövzumdur. Dağlar, yamaclar, yaşıl meşələr məni gözləyir" deyən rəssam bu torpağın təbiətini öz palitrasında sevə-sevə təsvir etməkdən doymayıb. "Dağlarda mart" (1976), "Rəsədxananın həyəti" (1980), "İlk şüa" (1981), "Dağlarda payız" (1982), "Camışlar" (1983), "Günorta" (1984) "Nəiminin qəbri" və başqa mənzərələri bu qəbildəndir. Y.Məmmədovun mənzərələrində elə bil Naxçıvanın havası, bu diyarın təbiətinin yetirdiyi min bir nemətin rayihəsi duyulur. Doğrudan da, o əsl rəssam olaraq bərəkətli torpağın misilsiz guşələrini, ülvi gözəlliklərini rəssam təxəyyülü ilə kətanda canlandırmışdır. Y.Məmmədov Naxçıvanı qarış-qarış gəzmişdi, müşahidə etmişdi, görüb duymuşdu, özü də ən yaxın dostu, yaradıcı həmkarı Səttar Bəhlulzadə ilə birlikdə.

Yazıçı Anar "Bir dostum vardı" adlı xatirə yazısında rəssam haqqında yazır: "Sən bu torpağı sevirdin, onun təkrarsız mənzərələrini sevirdin, zəhmətkeş adamlarını sevirdin, keçmişini sevirdin, bu gününü sevirdin. Sevirdin və sevdiklərini kətan üzərində tərənnüm edirdin...".

Şübhəsiz ki, Y.Məmmədov yaradıcılığı öz gücünü Azərbaycanın qədim xalça sənətindən, təsviri sənətimizdən almışdır. Onun palitrası xalçalarımızın, miniatür sənətimizin əlvan rənglər qammasını, lokal rəng keçidlərini özündə yaşadır, yaşatdıqca da rəssamın adını yaşatmış olur.

**Əsəd Quliyev**
**sənətşünas, AMEA-nın dissertantı**

## Xatirə təqvimi — 13-15 aprel

### Azərbaycan

**13 aprel 1909** – Əməkdar artist, teatr və kino aktyoru Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (1909 – 12.9.1960) Gəncədə doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**13 aprel 1917** – Əməkdar incəsənət xadimi, kinooperator Arif Əmir oğlu Nərimanbəyov (1917 – 16.5.1992) anadan olub. Çəkdiyi filmlər: "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri", "Bizim Cəbiş müəllim", "İnsan məskən salır", "Onun bəlalı sevgisi" və s.

**13 aprel 1922** – Azərbaycan arfa ifaçılığı məktəbinin yaradıcısı, Əməkdar artist Aida Həmdulla qızı Abdullayeva (1922-2010) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 aprel 1929** – Şair, Əməkdar incəsənət xadimi Tofiq Mütəllim oğlu Mütəllibov (1929 – 30.10.1992) Naxçıvan şəhərində anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**14 aprel 1870** – Görkəmli yazıçı-publisist, maarifçi, dövlət xadimi Nəriman Nərimanov (1870 – 19.3.1925) anadan olub. 1894-cü ildə Bakıda müsəlman əhali üçün ilk kütləvi kitabxananı təşkil edib. "Nadanlıq", "Nadir şah", "Bahadır və Sona", "Şamdan bəy" və s. əsərlərin müəllifidir. Azərbaycanın sovetləşməsindən sonra respublika hökumətinin – Xalq Komissarları Şurasının sədri (1920-1922) olub.

**14 aprel 1907** – Xalq artisti Fatma Qədir qızı Qədri (1907 – 29.2.1968) anadan olub. Səhnə fəaliyyətinə 1927-ci ildə Bakı Türk İşçi Teatrında başlayıb. Rus Dram Teatrında, Milli Dram Teatrında çıxış edib, pedaqoji fəaliyyət göstərib.

**14 aprel 1952** – Telejurnalist, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafa oğlu Mustafayev (1952 - 20.11.1991) Qazax rayonunda doğulub.

**14 aprel 1970** – Əməkdar artist Qaflan Məmmədrza oğlu Muradov (1890-1970) vəfat edib. Ağdam, Füzuli Dram teatrlarının aktyoru olub.

**15 aprel 1892** – Nasir, tərcüməçi Əli Səbri (Əli Camal oğlu Qasımov; 1892 – 19.2.1983) anadan olub.

**15 aprel 1905** – Məşhur memar, akademik Sadiq Ələkbər oğlu Dadaşov (1905-1946) anadan olub. Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Nizami Kino Mərkəzi, Bakı Musiqi Akademiyası və s. tikililərin layihələndirilməsində iştirak edib.

**15 aprel 1907** – Azərbaycan Rəssamlar İttifaqının ilk sədri İsmayıl Hüseyn oğlu Axundov (1907 – 13.9.1969) anadan olub. Qrafika, dekorativ-tətbiqi sənət, teatr rəssamlığı sahəsində çalışıb. "Koroğlu" operasının ilk geyim eskizlərinin yaradılmasında iştirak edib.

**15 aprel 1912** – Şair, publisist Əkbər Məftun (Əkbər Qurban oğlu Əkbərov; 1912-1990) anadan olub.

**15 aprel 1928** – Cənubi Azərbaycan şairi Səhənd (Bulud Qaraçorlu Səhənd; 1928-1979) Marağa şəhərində doğulub.

**15 aprel 2010** – Tanınmış aktyor, Xalq artisti Telman Adıgözəlov (17.7.1953 – 2010) vəfat edib. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında maraqlı obrazlar yaradıb, filmlərdə çəkilib.

### Dünya

**13 aprel 1883** – Rus bəstəkarı və dirijoru Aleksandr Aleksandrov (1883-1946) anadan olub. Keçmiş SSRİ-nin himninin musiqisinin vətənpərvərlik mahnılarının ("Müqəddəs müharibə" və s.) müəllifidir.

**13 aprel 1906** – İrland yazıçısı və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1969) laureatı Semuel Bekket (Samuel Beckett; 1906-1989) anadan olub. Absurd teatrının yaradıcılarındandır. Əsərləri: "Qodonun intizarında", "Oyunun sonu" (pyes), "Molloy", "Adsız" (roman). Bəstəkar Fərəc Qarayev yazıçının "Qodonun intizarında" əsərinə musiqi yazıb.

**14 aprel 1925** – Amerika aktyoru, "Oskar" mükafatçısı Rod Stayger (Rodney Stephen Steiger; 1925-2002) anadan olub.

**14 aprel 1930** – Litva kinorejissoru Vitautas Jalakyaviçus (1930-1996) anadan olub. Rejissorun "Bu şirin söz – azadlıq" filmində azərbaycanlı aktyorlar da çəkilib.

**15 aprel 1452** – İtalyan rəssamı, heykəltəraş, memar, Avropa İntibahının görkəmli nümayəndəsi Leonardo da Vinçi (Leonardo di ser Piero da Vinci; 1452 – 2.5.1519) Florensiyada doğulub. Məşhur əsərləri: "Mona Liza" ("Cokonda"), "Sonuncu şam" və s.

**15 aprel 1489** – Memar Sinan (Sinaneddin Yusif Abdülmennan oğlu; 1489 – 7.2.1588) Kayseridə doğulub. İstanbulda Süleymaniyə camisi, Ədirnədə Səlimiyə camisi, körpülər və s. tikililərin müəllifidir.

**15 aprel 1931** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2011) Tomas Tranströmer (Tomas Gösta Tranströmer; 1931 – 26.3.2015) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Ordubadinin 150 illiyi münasibətilə biblioqrafik göstərici hazırlanıb

Bu il görkəmli nasir, dramaturq, publisist, Əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadinin (1872-1950) 150 illik yubileyi qeyd edilir. Yarım əsrə yaxın yaradıcılıq yolu keçən ədib yaradıcılığının ilk dövründə şair, "Molla Nəsirəddin"çi satirik kimi, dövri mətbuatda fəal jurnalist kimi, ən başlıcası isə, nasir, romançı olaraq ədəbiyyatımızın inkişafına mühüm töhfələr verib.

1933-cü ildə "Dumanlı Təbriz" əsəri ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoyan ədib sonrakı illərdə qələmə aldığı "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), "Qılınc və qələm" (1946-1948) romanları ilə bu silsiləni davam etdirib, Azərbaycan tarixinin müxtəlif dövrləri haqqında oxucularda dolğun təəssürat yaratmağa çalışıb.

Ədibin yubileyi münasibətilə Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxananın əməkdaşları tərəfindən "Məmməd Səid Ordubadi" adlı biblioqrafik göstərici tərtib olunub. Göstəricinin tərtibçisi Mərkəzi Kitabxananın İnformasiya-resurs şöbəsinin əməkdaşı Mətanət Əliyeva, redaktoru Sumqayıt şəhər MKS-nin direktoru, Əməkdar mədəniyyət işçisi Yeganə Əhmədovadır.

Mütəxəssislər, tədqiqatçılar, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş göstəricidə Ordubadinin həyat və yaradıcılığının əsas tarixləri, kitabları və mətbuatda çap olunmuş əsərləri, publisistik yazıları, "Molla Nəsrəddin" jurnalında dərc edilən satirik şeirləri, felyetonları, sözlərinə bəstələnmiş musiqi əsərləri, haqqında kitablarda və dövri mətbuatda yer almış məqalələr əhatə olunub.

Əsas etibarilə 1930-2021-ci illərdə dərc olunmuş materialları əhatə edən biblioqrafik göstərici Azərbaycan və rus dillərində tərtib olunub, materiallar xronoloji qaydada, daxildə isə əlifba sırası ilə qruplaşdırılıb. İstifadəni asanlaşdırmaq məqsədilə sonda yazıçının əsərlərinin, onun haqqında yazan müəlliflərin əlifba göstəriciləri də tərtib olunub.

Biblioqrafik göstərici S.Vurğun adına Mərkəzi Kitabxananın saytında (http://sumlib.az/) yerləşdirilib.

İnanırıq ki, tərtib olunmuş bu vəsait həm ədibin 150 illik yubileyinə dəyərli töhfə, həm də Ordubadinin yaradıcılığı, şəxsiyyəti və fəaliyyəti ilə maraqlananlar üçün etibarlı mənbə olacaq.

**Pərvanə Qasımova**
**Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxananın əməkdaşı**

# Respublika Gənclər Kitabxanası "Nəşrlərin satınalınması müsabiqəsi"ni elan edib

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası fondunu yeni nəşrlərlə zənginləşdirmək və komplektləşdirmək məqsədilə "Nəşrlərin satınalınması müsabiqəsi"ni elan edib.

Müsabiqəni kitabxana tərəfindən yaradılan Nəşriyyat məhsullarının satınalınması üzrə komissiya keçirəcək.

Komissiya tərəfindən seçilən nəşrlərdən minimum 15 nüsxə alınacaq.

İştirakçılar tərəfindən nəşrlər 10 may 2022-ci il tarixinədək komissiyaya təqdim olunmalıdır. Müsabiqə üçün müəyyən edilmiş müddət başa çatdıqdan sonra təqdim olunan nəşrlər qəbul edilməyəcək.

Buraxılış məlumatında qiyməti göstərilməyən nəşrlərin dəyəri onun texniki göstəricilərinə, poliqrafik keyfiyyətinə görə mövcud bazar şərtləri əsasında müəyyənləşdiriləcək.

Məzmun və poliqrafik baxımdan qüsurlu, ümumi tirajı 200-dən aşağı (iki və daha çox cildli olduqda hər cildin tirajı 200-dən aşağı) olan nəşrlərin satınalınmasına yol verilmir.

Müsabiqəyə xarici dillərdə (əsasən ingilis, rus, fransız, alman, ərəb) olan nəşrlər də təqdim oluna bilər.

**Müsabiqədə iştirak qaydaları**

Müsabiqədə Azərbaycan Respublikasının ərazisində olan və (və ya) fəaliyyət göstərən nəşriyyatlar, jurnal redaksiyaları, nəşriyyat işi ilə məşğul olan poliqrafiya müəssisələri, digər hüquqi şəxslər və müəlliflər (müəlliflik hüququ sahibləri) iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən müəlliflər (müəlliflik hüququ sahibləri) vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə sahib olmalı və ya müəllifi (müəlliflik hüququ sahibi) olduqları nəşrləri çap olunduğu nəşriyyatlar vasitəsilə təqdim etməlidirlər.

8 aprel 2022-ci il tarixindən iştirakçılar tərəfindən komissiyaya ünvanlanmış müraciət və müraciətdə satınalınması göstərilən nəşrlərdən 1 nüsxə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasına (Bakı şəhəri Yasamal rayonu N.Nərimanov küçəsi 203/205) təqdim edilməlidir. Müsabiqəyə son iki ildə çap olunan nəşrlər qəbul olunur.

**Təqdim olunan nəşrlərin satınalınması qaydası**

Müsabiqə başa çatdıqdan sonra komissiya tərəfindən 1 ay ərzində təqdim olunan nəşrlərin dəyərləndirilməsi aparılır və satınalınması qərarlaşdırılan nəşrlər barədə yekun protokol tərtib edilir.

Təsdiq olunmuş yekun protokola əsasən, nəşrlərinin satınalınmasına qərar verilmiş iştirakçılarla satınalma müqaviləsi bağlanılır. Satınalma müqaviləsi üzrə hesablaşmalar bank hesabına köçürmə yolu ilə təhvil-təslim aktı imzalandıqdan sonra həyata keçirilir.

İştirakçılardan alınması nəzərdə tutulan nəşrlərin ehtimal olunan qiyməti müəyyən edilmiş minimum məbləğdən (5 min manat) yuxarı olduqda, həmin nəşrlərin alışı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçiriləcək.

Məlumat üçün bildiririk ki, müsabiqəyə təqdim olunan nəşrlərin nümunə nüsxələri geri qaytarılmır və kitabxananın fonduna daxil edilir.

№28 (1901)
13 aprel 2022
www.medeniyyet.az

# Özbəkistanda Azərbaycan mədəniyyəti günləri keçirilib

Xəbər verdiyimiz kimi, 6-9 aprel tarixində Özbəkistanda Azərbaycan mədəniyyəti günləri keçirilib. Tədbir Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı, iki ölkənin Mədəniyyət nazirlikləri və Azərbaycanın Özbəkistandakı Səfirliyinin dəstəyi ilə reallaşıb.





Mədəniyyət günlərində iştirak etmək üçün Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Milli Məclisin Azərbaycan-Özbəkistan dostluq qrupunun üzvü Müşfiq Cəfərov, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov və incəsənət ustalarından ibarət heyət Özbəkistana səfər edib.

AMM-dəki açılış mərasimindən sonra tədbirlər Özbəkistan Milli Kitabxanası və Özbəkistan Mədəniyyət və Sənət İnstitutunda davam edib.

Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasında yaradılan Azərbaycan fondunun təqdimatı olub, kitabxana ilə AMM arasında əməkdaşlığa dair memorandum imzalanıb. Özbəkistan Mədəniyyət və Sənət İnstitutunda keçirilən tədbirdə isə rəsmi hissədən sonra təqdim olunan konsert proqramında Xalq artisti Gülyanaq Məmmədova xalq mahnı və təsniflərimizi, İlham Abdullayev sazda qədim el havalarını, institutun ansamblı isə Azərbaycan və özbək mahnılarını ifa ediblər. Tələbələr azərbaycanlı modelyer Afaq İsmayılzadənin hazırladığı Azərbaycan və özbək milli libaslar kolleksiyasını nümayiş etdiriblər.

Mədəniyyət günləri çərçivəsində Daşkənddəki Repressiya Qurbanlarının Xatirəsi Dövlət Muzeyində "Azərbaycan və Özbəkistan xalqlarının repressiya faciəsi: bir tarix, bir tale" adlı beynəlxalq konfrans keçirilib.

Muzeyin direktoru Bəxtiyar Xasanov giriş nitqində Özbəkistanda 1920-ci illərdən 1950-ci illərin əvvəllərinə qədər davam edən repressiyalardan söz açıb.

AMM-in direktoru Samir Abbasov bildirib ki, repressiya dövründə Azərbaycanın və Özbəkistanın ziyalıları, alimlər, şairlər, yazıçılar, fəal vətənsevərlər eyni taleyi yaşayıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva da çıxışında Azərbaycanın və Özbəkistanın on minlərlə ziyalısının repressiyaya məruz qalmasından bəhs edib. Bildirib ki, Azərbaycandan Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Özbəkistandan Fitrat, Botu, Abdulla Qadiri, Usman Nasir kimi yüzlərlə görkəmli ziyalı qətlə yetirilib, ömrünü sürgündə başa vurmalı olub.

Milli Məclisin deputatı Müşfiq Cəfərov xalqlarımızın din, dil və mədəniyyət birliyindən danışıb. Deyib ki, ölkələrimiz arasında bütün sahələrdə münasibətlər uğurla inkişaf edir.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli çıxışında diqqətə çatdırıb ki, 1920-50-ci illər repressiyası dövründə Azərbaycandan təkcə Qazaxıstana 150 min insan sürgün olunub.

Sonra konfrans iştirakçıları 2001-ci ildə yaradılan Repressiya Qurbanlarının Xatirəsi Dövlət Muzeyi ilə tanış olublar.

Azərbaycan mədəniyyəti günlərinin daha biri tədbiri Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində (DDPU) "Nizami Gəncəvi və Əlişir Nəvainin yaradıcılığında türk təfəkkürü və ideoloji bədii əsaslar" adlı monoqrafiyanın təqdimatına həsr olunub. Professor Şuxrat Siracəddinov və dosent Gülbahar Aşurovanın müəllifi olduqları kitab AMM-in dəstəyi ilə çap edilib.

Tədbirdə universitetin rektoru, professor Abduqaffor Kırqızbayev, AMM-in direktoru Samir Abbasov, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, millət vəkilləri Qənirə Paşayeva, Müşfiq Cəfərov çıxış ediblər.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli Nizami Gəncəvi və Əlişir Nəvainin əsərlərində multikulturalizm ideyalarının ön plana çəkilməsi haqqında söhbət açıb. Şöbə müdiri universitetin rektoru Abduqaffor Kırqızbayevə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi" xatirə nişanını təqdim edib.

Professorlar Nurbay Cabbarov, Niqina Şermuxammedova, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov və başqa çıxış edənlər ölkələrimiz arasında mədəni-humanitar sahədə əməkdaşlığın inkişafından, təqdim olunan kitabın əhəmiyyətindən danışıblar.

Dosent Gülbahar Aşurova kitabın çapı üçün AMM-ə təşəkkürünü bildirib, birgə əməkdaşlığın bundan sonra da davam edəcəyini deyib.

# İstanbulda İslam Sivilizasiyaları Muzeyi açılıb

İstanbulun Böyük Çamlıca məscid kompleksinin ərazisində İslam Sivilizasiyaları Muzeyi yaradılıb.



Aprelin 8-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə muzeyin açılış mərasimi olub.

Mərasimdə çıxış edən dövlət başçısı muzeyin üç il əvvəl istifadəyə verilən Böyük Çamlıca məscidinin əsas hissələrindən biri olduğunu deyib. Diqqətə çatdırılıb ki, 10 min kvadratmetr qapalı sahədə inşa edilən İslam Sivilizasiyaları Muzeyi Türkiyənin Milli Saraylar İdarəsinə bağlı Topqapı Sarayı, Türk və İslam Sənətləri, İstanbul Arxeoloji, İstanbul Türbələr, Vəqflər və Saray Kolleksiyaları muzeylərinin fondlarından seçilmiş eksponatlar əsasında hazırlanıb.

VII- XIX əsrlər İslam mədəniyyətinin inkişafını özündə əks etdirən muzeydə 800-ə yaxın əsər sərgilənəcək. Muzey türk toxuculuq sənəti, İslam incəsənətində memarlıq və bəzək elementləri, İslamda elm, xəttatlıq, İslamda fəth, türk çini sənəti, Osmanlıda geyim kimi mövzuları özündə əks etdirən 15 tematik bölmədən ibarətdir. Muzeydə İslam tarixinin izlərini daşıyan, bir çoxu indiyədək sərgilənməmiş nadir eksponatlar da yer alır.

Muzeyin tərtibatında müasir muzeyşünaslıq texnologiyaları əsasında ərsəyə gələn videoistehsal və interaktiv sensor ekranlar, lazer işıqları kimi bir çox elementdən istifadə edilib.

# Braziliyada "Şuşa İli" və Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert

Braziliyanın Rio-de-Janeyro şəhərində Azərbaycanın musiqi beşiyi sayılan Şuşa şəhərinə və dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr edilmiş konsert təşkil edilib.



Azərbaycanın Braziliyadakı Səfirliyinin dəstəyi ilə keçirilən konsertdə Braziliya Dövlət Simfonik Orkestri Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə çıxış edib.

Tədbirin açılışında çıxış edən səfir Elxan Poluxov Azərbaycanda 2022-ci ilin "Şuşa İli" elan olunduğunu diqqətə çatdırıb və konsertin bu əlamətdar hadisəyə həsr olunduğunu deyib. Səfir çıxışında bildirib ki, bu il həmçinin Azərbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun 100 illiyi tamam olur. Diplomat Azərbaycan bəstəkarlıq məktəbində simfonik muğam janrının banisi olan Fikrət Əmirovun zəngin yaradıcılıq irsi barədə iştirakçılara ətraflı məlumat verib. Bildirib ki, Fikrət Əmirovun 100 illiyi UNESCO-nun yubileyləri proqramına da daxil edilib.

Sonra maestro Yalçın Adıgözəlovun dirijorluğu ilə Braziliya Dövlət Simfonik Orkestri tamaşaçılara geniş musiqi proqramını təqdim edib. Gecədə Fikrət Əmirovun "Azərbaycan kapriççiosu", "Kürd ovşarı" simfonik muğamı, "Nəsimi dastanı", həmçinin Vasif Adıgözəlovun 3 nömrəli piano və orkestr üçün konserti səslənib. Solist kimi Braziliyanın ən tanınmış pianoçusu, beynəlxalq mükafatlar sahibi Kristian Budu çıxış edib.

Şəhərin ən böyük konsert mərkəzi olan "Cidade Das Arches"dəki "Grande Sala"da baş tutan musiqi axşamı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Konsertə yerli tamaşaçılarla yanaşı, şəhər meriyasının əməkdaşları, Braziliyada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Rio-de-Janeyroda fəaliyyət göstərən Azərbaycan bələdiyyə məktəbinin müəllim-tələbə heyəti və xarici qonaqlar qatılıblar.

Qeyd edək ki, Yalçın Adıgözəlovun rəhbərliyi ilə baş tutan konsert Braziliyada pandemiyanın başlanmasından sonra Azərbaycana həsr edilmiş ilk musiqi tədbiridir. Son 10 il ərzində maestro Braziliyada ümumilikdə 6 konsert verib və yerli dinləyiciləri Azərbaycan musiqi inciləri ilə tanış edib.

# Avstriyalı tələbələr üçün muğamlar və tar mövzusunda ustad dərsi



Əməkdar artist, tarzən Sahib Paşazadə incəsənət sahəsində dünyanın məşhur ali təhsil ocaqları sırasında yer alan Vyana Musiqi və Təsviri İncəsənət Universitetində ustad dərsi keçib.

"Salam.Orient" festivalı ilə əməkdaşlıq çərçivəsində baş tutan dərsdə əvvəlcə universitetin xalq musiqisi tədqiqatları və etnomusiqişünaslıq ixtisası üzrə baş mütəxəssisi, professor Marko Kölbl Azərbaycan muğamı haqqında ümumi məlumat verib.

Sahib Paşazadə tələbələrə Azərbaycan muğamlarının quruluşu və digər ölkələrin muğamlarından fərqləndirici xüsusiyyətləri barədə danışıb, tar alətinin Azərbaycan klassik muğam musiqisində yerindən, tar alətinin hazırlanması və tar ifaçılığı sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmasından bəhs edib. O, Azərbaycan tarının digər ölkələrdə fərqli formalarda istifadə olunan bənzər musiqi alətləri ilə fərqləndirici xüsusiyyətləri barədə nəzəri məlumatları da diqqətə çatdırıb.

Sonra tarzən Azərbaycanın yeddi əsas muğamından qısa parçalar ifa edib, ifanın xarakterik xüsusiyyətləri, eləcə də tar üçün bəstələnmiş klassik musiqi əsərləri barədə danışıb. Qeyd edilib ki, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli beş əsas muğam pərdəsini saxlamaqla tar alətini Avropa klassik musiqi alətləri ilə bir cərgəyə çıxarıb. Ustad dərsinin sonunda S.Paşazadə tələbələrlə birlikdə "Mahur" muğamından parça ifa edib. Maraqla qarşılanan ustad dərsinin gələcəkdə tədris planı çərçivəsində təqdim olunması arzusu ifadə edilib.

# Haaqada "Nizami Gəncəvi" kitabının təqdimatı

Niderlandın Haaqa şəhərində fəaliyyət göstərən Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə Almaniyada yaşayan azərbaycanlı yazar Orxan Arasın "Nizami Gəncəvi" kitabının təqdimatı keçirilib.

Şəhərdəki "Transval" kitabxanasında təşkil olunan tədbiri dərnəyin sədri İlhan Aşqın açaraq kitab haqqında məlumat verib.

Müəllif Orxan Aras çıxış edərək Nizami Gəncəvinin yaradıcılığından, holland və türk dillərində olan kitabın yazılma tarixindən danışıb. Azərbaycan diasporunun üzvləri Nizaminin şeirlərini söyləyiblər. Şairin sözlərinə bəstələnmiş musiqi parçaları ifa edilib.

Azərbaycan-Türk Kültür Dərnəyinin sədri İlhan Aşqın və Azərbaycan Dillər Universitetinin dosenti Həqiqət Hacıyeva tədbirə qatılmış diaspor fəallarına, eləcə də dərnək üzvlərinə təşəkkürnamələr təqdim ediblər.

Mərasimdə Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyinin əməkdaşı Səbinə Sadıqova, Türkiyə səfirliyinin nümayəndəsi Ozan Can Gümüş iştirak ediblər.

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 193 il əvvəl...

**13 aprel 1829-cu ildə** Böyük Britaniyada katoliklərin emansipasiyası haqqında qanun Kral IV Georq tərəfindən təsdiqlənərək qüvvəyə minib. Xristianlığın katolik məzhəbinə aid olan vətəndaşlara dini etiqad azadlığı, dövlət vəzifələri tutmaq hüququ verilib.

### 174 il əvvəl...

**14 aprel 1848-ci ildə** Macarıstanda burjua inqilabı baş verib. Parlament Macarıstanın müstəqilliyi və alman mənşəli Qabsburqlar sülaləsinin taxtdan salınması barədə qərar qəbul edib.

### 157 il əvvəl...

**14 aprel 1865-ci ildə** ABŞ-da vətəndaş müharibəsi (Şimal-Cənub müharibəsi) gedişində Prezident Avraam Linkolna sui-qəsd olub. Linkoln teatrda olarkən "cənubluˮların nümayəndəsi ona atəş açmışdı. Bir gün sonra o, aldığı yaralardan vəfat etdi. Prezident qətlə yetirilsə də, vətəndaş müharibəsi Şimalın xeyrinə başa çatdı.

### 110 il əvvəl...



**14 aprel 1912-ci ildə** dünyanın o zaman üçün ən böyük gəmisi olan "Titanik" çıxdığı ilk reys zamanı Atlantik okeanının şimalında nəhəng aysberqlə toqquşaraq batıb. Britaniyadan ABŞ-a hərəkət edən gəmidə (rəsmi qeydiyyata görə) 2200 nəfər vardı. Onlardan 1500 nəfəri xilas etmək mümkün olmadı.

### 105 il əvvəl...

**15 aprel 1917-ci ildə** Bakıda Qafqaz müsəlmanlarının qurultayı başlayıb. Qurultay Rusiyada çarizmin süqutundan (Fevral inqilabı) sonra azərbaycanlıların milli istiqlal məramının bəyan olunması yönündə ilk cəhd idi. Qurultayda Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Həmid Sultanov məruzələrlə çıxış ediblər. Qurultay Rusiya Müvəqqəti Hökumətinin tanınması, Rusiyanın demokratik və federativ əsasda yenidən qurulması, Qafqaz müsəlmanlarının muxtariyyətinin təmin olunması barədə qərar qəbul edib.

### 91 il əvvəl...

**14 aprel 1931-ci ildə** İspaniyadakı parlament seçkilərində respublikaçıların qələbəsindən sonra başlanan kütləvi iğtişaşlar nəticəsində Kral XIII Alfons ölkədən qaçıb, monarxiya devrilib. İspaniyada başlanan vətəndaş müharibəsi 1939-cu ilədək davam etdi.

### 81 il əvvəl...

**13 aprel 1941-ci ildə** SSRİ ilə Yaponiya arasında bir-birinə hücum etməmək barədə pakt imzalanıb. Xalxin-Qol yaxınlığındakı hərbi toqquşmadan (1939) sonra imzalanan saziş Almaniya ilə müharibənin labüdlüyünü dərk edən SSRİ üçün çox vacib idi. Bu saziş sayəsində SSRİ Almaniya ilə dörd il sürən müharibə zamanı Yaponiya sarıdan arxayın idi.

### 47 il əvvəl...

**13 aprel 1975-ci ildə** Livanda vətəndaş müharibəsi başlayıb. Paytaxt Beyrutdakı kilsələrdən birində müsəlman fələstinlilərlə xristian flanqistlər arasında meydana gələn qanlı toqquşma bir neçə il sürən müharibənin faktiki səbəbi oldu.

### 28 il əvvəl...

**13 aprel 1994-cü ildə** erməni terrorçuları Azərbaycana qarşı daha bir aksiya həyata keçiriblər. Moskva-Bakı sərnişin qatarının Dağıstan ərazisində partladılması nəticəsində 6 nəfər həlak olub.

**Hazırladı: V.Orxan**

### Elan

Culfa Rayon Hərbi Komissarlığı tərəfindən 05.08.1999-cu il tarixində Qasımov Əli Asəf oğluna verilmiş MV 032687 seriyalı müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1034
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641